

Milli azadlıqdan şirin nemət yoxdur!

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

18 iyul 2026-cı il, şənbə
№ 125 (7192)
Qiyməti 60 qəpik


# Bakı ilə Vaşinqtonun sülh gündəmi qlobal təhlükəsizliyə töhfə verir

## Donald Tramp Azərbaycanın bölgədəki rolunu yüksək dəyərləndirir



Bax səh. 2

## Yeni səfirlər Prezidentin qəbulunda...

Bax səh. 2

## Nazirlərin görüşü...

Azərbaycanın xarici siyasəti isə beynəlxalq hüquq prinsiplərinə əsaslanan, mehriban qonşuluq, qarşılıqlı hörmət və humanizm prinsiplərinə söykənən uğurlu bir xəttdir. Regionda sabitliyin təmin olunması, münaqişələrin dinc yolla həlli və humanitar siyasəti bu kursun əsasını təşkil edir. Ölkəmiz qonşu dövlətlərlə bərabərhüquqlu və qarşılıqlı maraqlara əsaslanan əlaqələrin qurulmasına böyük önəm verir. Bu baxımdan, Azərbaycan-Rusiya əlaqələri diqqət mərkəzindədir. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun Rusiyaya rəsmi səfəri də bu baxımdan əhəmiyyətlidir.

Qeyd edək ki, iyulun 17-də xarici işlər naziri Ceyhun Bayramov Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində Moskvada rusiyalı həmkarı Sergey Lavrovla görüşüb. Xarici İşlər Nazirliyindən verilən məlumata görə, nazirlər Azərbaycan-Rusiya ikitərəfli gündəliyini, o cümlədən siyasi, iqtisadi, ticarət, nəqliyyat və humanitar sahələrdə əməkdaşlıq, həmçinin, regional və beynəlxalq təhlükəsizlik məsələlərini müzakirə ediblər. Tərəflər iki ölkə arasında əldə olunmuş razılaşmaların icra vəziyyətini nəzərdən keçiriblər.

Müzakirələrdə İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın fəaliyyəti və Azərbaycan-Rusiya Biznes Şurasının rolu da daxil olmaqla, iqtisadi və ticarət əməkdaşlığının mövcud vəziyyəti və perspektivlərinə diqqət yetirilib. Qeyd olunub ki, nəqliyyat əlaqələrinin və regional nəqliyyat layihələrinin inkişafı yalnız iştirakçı dövlətlərin deyil, bütövlükdə regionun iqtisadi dayanıqlığının möhkəmlənməsinə xidmət edir. Nazirlər, həmçinin, Beynəlxalq Şimal-Cənub...

Bax səh. 3

## Sadiq və etibarlı enerji təchizatçısı



Bax səh. 3

## Azərbaycan və Türkiyənin yeni sazişi

Bax səh. 5

## Beynəlxalq Valyuta Fondu nikbindir

Bax səh. 5

## Dünya Süni İntellekt Əməkdaşlıq Təşkilatı təsis edilib

Bax səh. 6

## 2031-ci ilədək...

Bax səh. 6

## Azərbaycanın şəhərsalma təcrübəsi dünyanın maraq dairəsində

Azərbaycanla BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) arasında əməkdaşlığın yeni səhifəsi açılır. Bu günlərdə BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında Azərbaycan Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə UN-Habitat arasında "Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonunda ağıllı, davamlı və inklüziv yaşayış məntəqələrinə doğru - dayanıqlı şəhər inkişafı üçün inteqrəolunmuş ərazi planlaşdırması" layihəsi üzrə Töhfə Sazişi imzalanıb.

Sənədi Komitə sədri Anar Quliyev və UN-Habitatın icraçı direktoru Anaklaudiya Rossbax imzalayıblar. Saziş Azərbaycan ilə UN-Habitat arasında əməkdaşlığın yeni mərhələsinin əsasını qoyur. Bu əməkdaşlıq Böyük Qayıdışa dair II Dövlət Proqramı çərçivəsində doğma yurdlarına qayıdan sakinlər üçün daha dayanıqlı və insan mərkəzli yaşayış mühitinin formalaşdırılmasına töhfə verəcək.

Eyni zamanda, Anar Quliyev Nyu-Yorkda baş tutan Yeni Şəhər Gündəliyinin həyata keçirilməsinin ortamüddətli icmalına həsr olunmuş Yüksəksəviyyəli İclasda ölkə hesabatını təqdim edib. O bildirib ki, Azərbaycan şəhərsalma qanunvericiliyini təkmilləşdirir, yaşıl tikinti və binaların enerji səmərəliliyini təşviq edir, tikinti icazələrinin rəqəmsallaşdırılması da daxil olmaqla rəqəmsal idarəetməni gücləndirir...

Bax səh. 4

## Pentaqon Kubaya hərbi müdaxiləni nəzərdən keçirir?



Bax səh. 7

## Turist axını niyə azalır?



Bax səh. 6

# Yeni səfirlər Prezidentin qəbulunda...

## Prezident İlham Əliyev Braziliyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 17-də Braziliya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bernard Jorj Leopold de Qarsia Klinqli qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin inkişafından məmnunluğunu bildirərək, siyasi, iqtisadi-ticari, sərmayələr, turizm sahələrində əməkdaşlığın genişləndirilməsinin və müxtəlif səviyyələrdə təmasların artırılmasının əhəmiyyətini vurğuladı.

Prezident İlham Əliyev səfirə fəaliyyətində uğurlar arzuladı, onun fəaliyyətinin Azərbaycan-Braziliya əlaqələrinin inkişafına töhfə verəcəyinə ümidvarlığını bildirdi.

Ölkəmizə səfir təyin olunmasından və dövlətimizin başçısı ilə görüşdən şərəf hissi duyduğunu deyən Bernard Jorj Leopold de Qarsia Klinql diplomatik əlaqələrimizin yüksək səviyyədə olduğunu qeyd etdi.

Səfir Azərbaycanın və Braziliyanın COP sahəsində də uğurlu əməkdaşlıq etdiklərini vurğuladı.

Bernard Jorj Leopold de Qarsia Klinql səfir kimi ikitərəfli münasibətlərimizin genişləndirilməsinə töhfə verəcəyini dedi.

Görüşdə Azərbaycanla Braziliya arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın uğurla aparıldığı qeyd edildi, hər iki dövlətin çoxtərəfli diplomatiyanı dəstəklədiyi xüsusilə vurğulandı.

## Prezident İlham Əliyev Kambocanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 17-də Kamboca Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sok Çeanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ölkəmizin Kamboca ilə ikitərəfli münasibətlərə və qarşılıqlı dəstəyə, həmçinin hökumətlərimiz və hakim partiyalar səviyyələrində təmaslara böyük önəm verdiyini deyərək, yalnız siyasi deyil, eyni zamanda, iqtisadiyyat, investisiyalar sahələrində əlaqələrimizi daha yüksək səviyyəyə çatdırmağın önəminə toxundu, Azərbaycanla Kambocanın dost ölkələr olduğunu bildirdi.

Qəbula görə dövlətimizin başçısına təşəkkürünü ifadə edən səfir Kambocanın Kralı Norodom Sihamoninin və Baş naziri Hun Manetin salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Kambocanın Kralına və Baş nazirinə çatdırmağı xahiş etdi.

Səfir Kambocanın Azərbaycanla dost münasibətlərə yüksək dəyər verdiyini vurğuladı. O, ölkələrimizin coğrafi baxımdan bir-birindən uzaqda yerləşməsinə baxmayaraq, Azərbaycan və Kambocanın dayanıqlı inkişaf, beynəlxalq sülh və sabitlik məsələlərində eyni mövqedən çıxış etdiklərini dedi.

İkitərəfli əməkdaşlığın möhkəmləndirilməsi üçün yaxşı potensialın olduğunu qeyd edən səfir ticarət, turizm, mədəniyyət, xalqlararası təmaslar sahələrində münasibətlərimizin genişləndirilməsi üçün səylərini əsirgəməyəcəyini vurğuladı.

Görüşdə Azərbaycanın və Kambocanın beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığından məmnunluq bildirildi.



Kambocanın Baş nazirinin ölkəmizə gözlənilən səfərinin ikitərəfli əlaqələrimizin daha da inkişafı üçün yaxşı imkan yaradacağına ümidvarlıq ifadə olundu.

## Prezident İlham Əliyev Omanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 17-də Oman Sultanlığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Saif Raşid Saif Al Cahvarini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı dost ölkələrimiz arasında münasibətlərin uğurlu inkişafından məmnunluğunu bildirərək, bir çox sahədə, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığın həyata keçirildiyini dedi və tərəfdaşlığın möhkəmləndirilməsi üçün yaxşı imkanların olduğunu vurğuladı.

Səfirə fəaliyyətində uğurlar arzulayan Prezident İlham Əliyev onun ikitərəfli gündəliyin müxtəlif sahələri üzrə əməkdaşlığın dərinləşdirilməsinə töhfə verəcəyinə ümidvarlığını bildirdi.

Azərbaycana səfir təyin olunmasından məmnunluğunu ifadə edən Saif Raşid Saif Al Cahvari Oman Sultanı Heytəm bin Tariq Al Səidin salamlarını dövlətimizin başçısına çatdıraraq dedi ki, Oman Sultanı Prezident İlham Əliyevə möhkəm cansağlığı, ölkəmizə isə yeni uğurlar arzulayır.

Prezident İlham Əliyev xoş sözlərə və salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Oman Sultanına çatdırmağı xahiş etdi.

Səfir bu günlərdə diplomatik münasibətlərimizin 35 illiyinin qeyd olunmasının önəmini vurğuladı.

O, Leyla Əliyevanın bu ilin əvvəlində Omana səfərini xatırladaraq, həmin səfər zamanı keçirilmiş görüşlərin və aparılmış müzakirələrin əhəmiyyətinə toxundu, bütün bunların ikitərəfli əlaqələrimizin inkişafına mühüm töhfə verdiyini dedi.

Söhbət zamanı Azərbaycanla Oman arasında turizm sahəsində əməkdaşlıq qeyd edildi, birgə investisiya fondunun yaradıldığı bildirildi və gələcəkdə onun maliyyə imkanlarının artırılması perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyev İrlandiyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 17-də İrlandiyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kler Brosnanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında münasibətləri genişləndirməyin əhəmiyyətini qeyd edərək, siyasi sahə ilə yanaşı, investisiyalar və digər potensial istiqamətlər üzrə əməkdaşlığı möhkəmləndirmək üçün imkanlara toxundu.

Bakıda olmaqdan şərəf hissi keçirdiyini deyən səfir paytaxtımızın gözəlliyinin və burada tarixi ənənələrlə müasirliyin vəhdətinin onlarda zəngin təəssüratlar yaratdığını bildirdi, Azərbaycanın gözəl ölkə olduğunu vurğuladı.

Səfir Azərbaycanla Ermənistan arasında sülh gündəliyi ilə əlaqədar əldə olunmuş nailiyyətlər münasibətilə dövlətimizin başçısını bir daha təbrik etdi.

Kler Brosnan hazırda İrlandiyanın Avropa İttifaqına sədrlik funksiyasını yerinə yetirdiyini deyərək, ölkəmizlə bu qurum arasında əlaqələrin inkişafını dəstəklədiyini bildirdi. O, həmçinin İrlandiyanın "Avropa Siyasi Birliyi"nin növbəti Zirvə Görüşünə ev sahibliyi edəcəyini dedi.

Kler Brosnan COP29-da iştirakını xatırlayaraq, Azərbaycanın bu tədbirə uğurla ev sahibliyi etdiyini, onun yüksək səviyyədə təşkil olunduğunu və COP29-da yaxşı nəticələrin əldə edildiyini vurğuladı.

Dövlətimizin başçısı da öz növbəsində COP29 çərçivəsində qlobal yaşıl gündəliklə bağlı Azərbaycan tərəfindən bir sıra təşəbbüslərin irəli sürüldüyü deyərək, ölkəmizdə bu istiqamətdə görülən işlərə toxundu.



Söhbət zamanı Azərbaycanla İrlandiya arasında təhsil, yüksək texnologiyalar sahələrində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

# Bakı ilə Vaşinqtonun sülh gündəmi qlobal təhlükəsizliyə töhfə verir

## Donald Tramp Azərbaycanın bölgədəki rolunu yüksək dəyərləndirir

**Artıq bir neçə ildir ki, dövlətlərin qlobal proseslərdəki iştirakı, nüfuzu hərbi və iqtisadi potensialla yanaşı, həm də regional sabitliyə töhfəsi, diplomatik fəallığı və qlobal təşəbbüsləri ilə müəyyənləşir. Azərbaycan məhz bu istiqamətlər üzrə əldə etdiyi uğurlarla orta güc statusunu möhkəmləndirən ölkələr sırasında göstərilir. Təsadüfi deyil ki, IV Şuşa Qlobal Media Forumunun açılış mərasimində Prezident İlham Əliyev ölkəmizi məhz "orta güc" statusu qazanmasının səbəblərinə, bu statusun meyarlarına diqqət çəkdi. Bakının beynəlxalq siyasi dialoq, enerji təhlükəsizliyi, nəqliyyat-logistika və iqlim gündəliyinin mühüm platformalarından birinə çevrilməsi ölkəmizin artan geosiyasi çəkisini nümayiş etdirir. Şuşa Qlobal Media Forumuna dünyanın müxtəlif ölkələrindən media nümayəndələrinin, ekspertlərin və rəsmilərin böyük maraq göstərməsi də Azərbaycanın beynəlxalq gündəmdə tutduğu mövqenin növbəti təsdiqidir. Regionda yeni əməkdaşlıq və sülh arxitekturasının formalaşdırılması istiqamətində irəli sürdüyü təşəbbüslər, iqtisadi inkişaf modeli və çoxtərəfli əməkdaşlığa verdiyi töhfələr Azərbaycanın etibarlı tərəfdaş kimi qəbul edilməsini daha da gücləndirir. Bütün bunlar ölkənin regional liderlik imkanlarının qlobal miqyasda da getdikcə daha çox qəbul edildiyini göstərir.**

### Trampın paylaşımı...

Bu xüsusda ABŞ-ın Azərbaycana artan diqqəti xüsusi əhəmiyyət daşıyır. Prezident Donald Trampın ikinci dəfə dövlət başçısı seçilməsinin ardından müəyyənləşdirdiyi qlobalyönümlü və sülhpərvər siyasət Bakının çağırışları ilə üst-üstə düşür. Məhz bunun nəticəsidir ki, hər iki ölkə son dövrlərdə qlobal təhlükəsizliyin təmini prosesində yanaşı dayanır, birgə hərəkət edir. Prezident İlham Əliyev hər zaman Donald Trampın beynəlxalq sülhə verdiyi töhfələri yüksək dəyərləndirir. IV Şuşa Qlobal Media Forumunun açılışında Prezident İlham Əliyev bildirdi ki, Prezident Tramp sülhsevər, dünyanın müxtəlif bölgələrində sülhün bərqərar olunmasına çalışan bir liderdir. Özünün də qeyd etdiyi kimi, o, səkkiz münaqişənin həllinə töhfə verib. Bu, onun xarakterini, baxışlarını və siyasətini əks etdirir: "Bizim məsələdə Prezident Trampın rolu Azərbaycan ilə Ermənistan arasında sülh sazişi üzrə danışıqların yekun mərhələsində xüsusilə mühüm oldu. Prezident Tramp və onun komandası bu prosesə qoşularaq elə bir çərçivə formalaşdırdılar ki, nəticədə sülh mümkün oldu. Onlar sülhlə bağlı narahatlıqlarımızı tam şəkildə anlayırdılar. Onlar Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək Zəngəzur dəhlizinin zəruriliyini aydın şəkildə dərk edirdilər və Ermənistanı da bu sülhün vacibliyinə inandırmaq istiqamətində olduqca səmərəli fəaliyyət göstərdilər. Nəticədə, Ağ Evdə Ermənistanın Baş naziri, Prezident Tramp və mənim iştirakımla keçirilən tarixi görüş zamanı birgə Bəyannamə imzalandı. Həmçinin Prezident Trampın iştirakı ilə hər iki ölkənin xarici işlər nazirləri sülh sazişini parafladılar"

Yeri gəlmişkən, ABŞ Prezidenti Donald Tramp Azərbaycan Prezidenti İlham Əliyevin onun haqqında səsləndirdiyi fikirlərinin yer aldığı məqaləni özünün "Truth" sosial şəbəkə hesabında paylaşıb. Həmin geniş məqalə "Breitbart"da dərc olunub. "Azərbaycan Prezidenti İlham Əliyev Donald Trampı sülh adamı adlandırdı və Ermənistan-Azərbaycan razılaşmasını onun xidmətləri ilə əlaqələndirdi" başlıqlı məqalədə Prezident İlham Əliyevin IV Şuşa Qlobal Media Forumunda səsləndirdiyi fikirlərə yer verilib. Məqalədə Prezident İlham Əliyevin Prezident Donald Tramp və onun komandasının Azərbaycan ilə Ermənistan arasında sülh prosesinin irəliləməsinə mühüm töhfə verdiyini, Trampı isə sülh insanı kimi xarakterizə etdiyi vurğulanıb.

### Vaşinqton Azərbaycanın sülh təşəbbüslərini dəstəkləyir...

Bu fakt bir daha deyilənləri təsdiqləyir - Azərbaycan ilə Donald Trampın sülh yanaşmalarında mühüm uyğunluqlar mövcuddur. Ötən ilin yayında Vaşinqtonda keçirilən üçtərəfli danışıqlar, Azərbaycanın sülh təşəbbüsünün ABŞ-ın paytaxtında təsdiqlənməsi, sülh sazişinin paraflanması Cənubi Qafqazda yeni bir gələcək üçün mühüm təməllər atdı. Azərbaycanın bu təşəbbüsü beynəlxalq ictimaiyyətə açıq mesajdır: sülhün təşviqi və münaqişələrin aradan qaldırılması bəşəriyyət üçün ən vacib missiyadır. Dövlətimiz özünəməxsus şəkildə göstərir ki, qlobal səylərə dəstək vermək, sülh yönümlü siyasəti olan liderləri dəyərləndirmək, beynəlxalq dialoqu gücləndirmək XXI əsrin əsas prioritetlərindən biridir. Bu həm Azərbaycanın sülh fəlsəfəsinə sadiqliyinin, həm də gələcək təhlükəsiz dünya düzəni naminə göstərdiyi prinsipial mövqenin təzahürüdür.



Daha sonra, ötən ilin payızında Misirdə təşkil olunan Qlobal Sülh Sammitində və Nyu Yorkda baş tutan BMT Baş Assambleyasının 80-ci sessiyası çərçivəsində də Trampın səsləndirdiyi fikirlər sübut etdi ki, Bakı ilə Vaşinqtonun sülh gündəliyi paralel tezislərə əsaslanır. Bu mövqe göstərir ki, Bakı və Vaşinqton arasında sülh və təhlükəsizlik sahəsində formalaşan yeni əməkdaşlıq xətti getdikcə daha sistemli xarakter alır. Bu da təsadüfi deyil. Azərbaycan uzun illərdir regionda sabitliyi təşviq edən, münaqişələrin aradan qaldırılmasına yönəlmiş təşəbbüslər irəli sürən dövlət kimi tanınır. 44 günlük müharibədən sonra formalaşmış yeni reallıq, regionda açılan kommunikasiyalar, təhlükəsizlik formatlarının yenidən qurulması və əməkdaşlıq məkanının genişlənməsi Azərbaycanın sülh siyasətini daha da aktuallaşdırıb. Trampın bu siyasəti müsbət qiymətləndirməsi və hər zaman Azərbaycanın sülh təşəbbüslərini dəstəkləməsi ikitərəfli münasibətlərin yeni mərhələyə qədəm qoyduğunu göstərir.

### Sülhpərvər mövqeyə verilən dəyərli qiymət...

Prezident İlham Əliyev də öz növbəsində IV Şuşa Qlobal Media Forumunda səsləndirdiyi fikirləri paylaşdığı üçün ABŞ Prezidenti Donald Trampa təşəkkür edib. Bu barədə Azərbaycan Prezidentinin sosial media hesablarında paylaşım edilib. Paylaşımda deyilir: "Cənab Prezident, Şuşa Qlobal Media Forumunda səsləndirdiyim və "Breitbart" nəşrinə istinadən Sizi "Sülh İnsanı" kimi xarakterizə etdiyim fikirlərimi paylaşdığınıza görə Sizə təşəkkür edirəm.

Tarixi Vaşinqton Sammitinin birinci ildönümünə bir aydan az vaxt qaldığı bir dövrdə Azərbaycan ilə Ermənistan arasında davamlı sülhün bərqərar olunması istiqamətində əvəzsiz rolunuza görə Sizə bir daha səmimi minnətdarlığımı ifadə etmək istərdim. Sizin liderliyiniz regionumuzun sülhə, sabitliyə və rifaha yaxınlaşmasına tarixi töhfə verib. Siz həqiqətən də Sülh İnsanısınız".

### Trampın sülh missiyası...

Vurğulandığı kimi, Donald Trampın son bir ildə həyata keçirdiyi diplomatik təşəbbüslər beynəlxalq münasibətlər sisteminə yeni nəfəs gətirdi. Xüsusilə Yaxın Şərqdə, Afrikada, Asiyada uzun illər davam edən qarşıdurmaların yumşaldılması, region ölkələri arasında etimad mühitinin formalaşdırılması və təhlükəsizlik dialoqunun bərpa edilməsi Tramp administrasiyasının əsas nailiyyətləri sırasındadır. Trampın diplomatik xəttinin əsas xüsusiyyətlərindən biri proseslərin uzadılmasına deyil, konkret nəticələrə hesablanmasıdır. Bir il ərzində səkkiz müxtəlif münaqişənin dayandırılmasına vasitəçilik etmək onun sülhə yönəlik praqmatik yanaşmasını təsdiqləyir.

Ötən ilin avqustunda Azərbaycan ilə Ermənistan arasında əldə olunan razılaşma, sülh sazişinin paraflanması da bölgədə yeni geosiyasi reallıq yaratdı. Bu razılaşmanın əldə olunması prosesində ABŞ-ın, xüsusilə də Donald Trampın iştirakı və dəstəyi mühüm rol oynadı. Vaşinqtonun tərəflərə təzyiq göstərmədən, lakin dialoqu təşviq edərək sülh prosesinə töhfə verməsi bu nailiyyətin əsas elementlərindən biri sayılır. Beləliklə, Trampın həyata keçirdiyi siyasət həm Yaxın Şərqdə, həm də Cənubi Qafqazda sabitlik üfüqlərini genişləndirib. Onun sülh təşəbbüsləri qlobal miqyasda sülhə dəstək verən liderlərin fəaliyyətində yeni nümunə kimi qiymətləndirilir.

### İkitərəfli əlaqələr üçün yeni gündəm...

Prezident Donald Tramın IV Şuşa Qlobal Media Forumu ilə bağlı paylaşımı bir daha Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyətini yüksək dəyərləndirdiyini təsdiqləyir. İlham Əliyevin liderliyi ilə Azərbaycan regionda ədalətli, davamlı və qarşılıqlı hörmətə əsaslanan sülh modelini formalaşdırıb. Tramp bu siyasətin real nəticələr verdiyini açıq şəkildə görür - iki lider arasında münasibətlər həm də iki ölkənin strateji baxışlarının üst-üstə düşməsi fonunda formalaşmış siyasi reallıqdır. Bir sözlə, ABŞ-Azərbaycan ikitərəfli münasibətləri yeni bir status qazanıb. Bu il fevralın 10-da ABŞ-ın vitse-prezidenti Cey. Di. Vensin Bakıya səfəri çərçivəsində Azərbaycan ilə ABŞ arasında imzalanan Strateji Tərəfdaşlıq haqqında Xartiya münasibətlərin keyfiyyətcə ən yeni mərhələsinin başlanğıcı kimi qiymətləndirilir.

Xartiya özündə bir sıra mühüm məqamları ehtiva edir - diplomatik əlaqələrin genişlənməsi, strateji iqtisadi münasibətlər sisteminin formalaşdırılması, müasir çağırışlara əsasən dialoqun daha da gücləndirilməsi ilə yanaşı, sənəd həm də Azərbaycanın Cənubi Qafqazda formalaşdırdığı yeni siyasi reallıqların beynəlxalq müstəvidə qəbulunun göstəricisi sayıla bilər. Qarabağ müharibəsində əldə olunan Zəfərdən sonra regionda yaranmış geosiyasi vəziyyət Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tam bərpası ilə xarakterizə olunur. Xartiyanın preambulasında əksini tapan müddəalar Vaşinqtonun bu reallığı nəzərə aldığını və Bakı ilə münasibətləri yeni status və yeni əməkdaşlıq müstəvilərində inkişaf etdirmək niyyətində olduğunu göstərir.

*Pərviz SADAYOĞLU*

# Sadiq və etibarlı enerji təchizatçısı

## Azərbaycan Avropa İttifaqı ölkələrinə qaz nəqlinin coğrafiyasını genişləndirir



Prezident Şuşada keçirilən IV Şuşa Qlobal Media Forumunun açılış mərasimində Azərbaycanın dünya ölkələrinin enerji təhlükəsizliyində oynadığı müstəsna rola toxunaraq bildirib ki, 2026-cı ilin əvvəlindən Almaniya və Avstriyaya qaz ixracına başlamaqla Avropa qaz bazarında mövqeyimiz daha da genişlənib. Hazırda Azərbaycan 16 ölkəyə qaz tədarük edir, onlardan 10-u Avropa İttifaqına üzv olan ölkələrdir. Avropa bazarı yüksək qiymətlərin formalaşdığı, ölkəmiz üçün premium hesab edilən bazardır. Buna görə də ixrac imkanlarımızı daha da genişləndirməkdə olduqca maraqlıyıq. Hazırda boru kəmərləri vasitəsilə qaz ixracının coğrafi əhatəsinə görə, Azərbaycan dünyada birinci yerdədir.

**Pan-Avropa enerji təchizatçısı**

Yüksək etimad və sadiq tərəfdaşlığın nəticəsidir ki, Avropa Komissiyası Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa enerji təchizatçısı kimi tanıyır. Respublikamızdan nəql olunan neft və qaz bir çox ölkələrin enerji təhlükəsizliyində və möhkəmləndirilməsində böyük dəyişiklik yaradır. Mövcud proqnozlara görə, 2026-2028-ci illərdə ölkəmizin Avropa regionuna ixracı 15-16 milyard kubmetrə çatacaq. Növbəti illərdə ixracın artırılması üçün digər mənbələr də səfərbər olunacaq. Bu məsələ bir neçə gün əvvəl Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin ölkəmizə səfəri zamanı da əsas müzakirə mövzularından biri kimi diqqətə çatdırılıb.

Tərəflər arasında sadiqlik və həmrəylik amili nəzərə alınmaqla, uzunmüddətli vacib enerji platforması qurulacaq. Cənab Antonio Koştanın da etiraf etdiyi kimi Azərbaycanın Avropa ölkələrinin enerji təchizatının şaxələndirilməsində rolu nəzərə alınaraq bu istiqamətdə mövcud imkan resurslarının daha da diversifikasiyası nəzərdə tutulur. Mövcud möhkəm hüquqi çərçivə sənədinə əsasən, Cənub Qaz Dəhlizinin nəql infrastrukturlarının artırılması da bu ssenariyə daxildir.

**Cənub Qaz Dəhlizinin genişləndirilməsinə yeni sərmayələr cəlb olunacaq**

Azərbaycanın hasilatı və ixracı artırmaq üçün kifayət qədər potensialı mövcuddur. Hazırda qaz tədarükündə əsas mənbə olan "Şahdəniz -2" layihəsi üzrə hasilat hər il artır və təkcə bu mənbədən illik 16-17 milyard kub.metr qaz istehsal olunur. "Şahdəniz"in əlavə ehtiyatlarından başqa, "Azəri-Çıraq-Günəşli" (ACG) blokundan hasilatın həcmi yüksəlir. Cəmi bir neçə ay əvvəl AÇG-nin dərin qaz yatağından - "ACG Deep Gas" adlandırılan layihə çərçivəsində hasilata başlanılıb. Eyni zamanda, təsdiq edilmiş iş proqramı və investisiya portfeli əsasında mövcud yataqlarda da hasilatın artırılması istiqamətində ardıcıl işlər görülməkdədir. "Abşeron" və "Ümid" yataqlar blokundakı dərin qaz ehtiyatları, olduqca perspektivli "Şəfəq-Asiman", "Babək", "Zəfər-Məşəl" və başqa strukturlar da ölkəmizin potensialının artmasında mühüm rol oynamaqdadır. Əsas perspektivli yataqlardan biri olan "Abşeron" yatağında da hasilatın həcmində əhəmiyyətli artımlar müşahidə edilməkdədir. 2025-ci ildə bu yataqdan 2 milyard kub.metrdən çox qaz hasil edilib ki, bu, əvvəlki illə nisbətdə 2 dəfəyə yaxın artım deməkdir. Yataqda 350-360 milyard kub.metr qaz ehtiyatları ehtimal edilir. Digər qiymətləndirmələr bu yatağın ehtiyatlarının 400 milyard kub.metrdən də çox olduğunu deməyə əsas verir. Bu isə təkcə, "Abşeron"un Aİ-yə ən azı 20-25 qaz nəqlində perspektiv mənbə olacağını təsdiqləyir.

Nəticədə, hasilat həcmlərinin artırılması Azərbaycanın qaz istehsalı nəqlinin böyüməsi fonunda Cənub Qaz Dəhlizinin ixrac infrastrukturunun da genişləndirilməsi də labüdləşir. Bu ehtiyaclar fonunda TAP kəmərinin ötürücülük potensialının genişləndirilməsi istiqamətində davamlı addımlar atılır. Dövlət başçısı bu məsələyə münasibət bildirərkən xatırlatdı ki, həm hasilat həcmlərinin artması, həm də bölgədə baş verən geosiyasi proseslər, xüsusilə də, Rusiya-Ukrayna müharibəsi mövcud qaz nəqli infrastrukturunun genişləndirilməsini zəruri edir. Bu baxımdan əsas sual ondan ibarətdir ki, boru kəmərlərinin ötürmə qabiliyyətinin artırılması üçün zəruri maliyyə vəsaiti tələb olunur ki, həmin sərmayələrin cəlb edilməsi məsələsi Ursula Fon der Lyayenin səfəri zamanı ətraflı müzakirə olunub.

**Tərəfdaşlığın yeni mərhələsi - "yaşıl enerji"**

Şuşa Media Forumunda Azərbaycanın ənənəvi enerji tədarükü ilə yanaşı, Avropa regionuna bərpaolunan enerji resurslarının nəqli imkanlarına da diqqət çəkildi. Azərbaycan qaz nəqlini həm istehsalın həcminin artması, həm də bərpaolunan enerjinin daxili yanacaq təchizatında rolunun artması sayəsində qaza qənaət edilməsi hesabına artırır. Belə ki, "yaşıl enerji"nin istehsalının son 3 ildə 5 milyard KVs.ta çatdırılması yerli qaz istehlakında azalmanı təmin edir ki, əldə edilən qənaət hesabına xarici dövlətlərə nəql potensial böyüyür. Nəticədə, regionun ən nəhəng ixrac arteriyalarından biri olan Cənub Qaz Dəhlizi və TAP-ın nəqli coğrafiyası genişlənir.

Cənab İlham Əliyevin vurğuladığı kimi bərpaolunan enerji sahəsində genişmiqyaslı işlər həyata keçirilir və bu, enerji mənbələri xeyli həcmdə qaza qənaət etməyə imkan verir və gələcəkdə bu göstərici daha da artacaq. Azərbaycan 2032-ci ilədək bərpaolunan enerji mənbələri üzrə 8 gigavat generasiya gücünə çatmağı planlaşdırır. Həmin enerji mənbələri sahəsində tərəfdaş ölkələrlə əməkdaşlığın genişləndirilməsi və Azərbaycanın "yaşıl potensialı"nın Avropaya tədarükü, Qara dəniz sualtı kabeli layihəsinin qlobal bağlantıya çevrilməsinin başa çatdırılması üzərində işlər uğurla aparılır. Azərbaycan ilə Avropa İttifaqı arasında enerji tərəfdaşlığının yeni mərhələdə inkişafı məqsədilə yaradılan yüksək səviyyəli enerji dialoqu da məhz bu prioritetləri əks etdirir. Belə ki, 2022-ci il dekabrın 17-də Buxarestdə imzalanmış "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in tələblərinə əsasən, dörd ölkənin - Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniyanın iştirakı ilə daha geniş format yaradılıb. "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" və ya "Qara dəniz kabeli" adlanan layihə Azərbaycanın külək və günəş enerjisi stansiyalarından əldə edilən "yaşıl enerji"nin Avropaya nəqlini nəzərdə tutur. "Həmrəylik halqası" marşrutu sxeminə əsasən, Xəzər-Aİ "yaşıl enerji" dəhlizi Avropaya təhlükəsiz və etibarlı mənbədən bərpaolunan enerji resurslarını nəql etməklə, Azərbaycanın ixracının şaxələnməsini təmin edəcək.

Beləliklə, enerji bazarında etibarlı, proqnozlaşdırılabilən və alternativ mənbə olan Azərbaycan qazı, bu gün Aİ ölkələri üçün on il əvvəlkindən daha böyük əhəmiyyət kəsb edir və əməkdaşlığın artırılması birgə etimadı daha da möhkəmləndirir.

***E.CƏFƏRLİ***

## Nazirlər Kabinetinin iclasında...

## Əhalinin siyahıyaalınması ilə bağlı məsələlər müzakirə olunub



İyulun 17-də Baş nazir Əli Əsədovun sədrliyi ilə Nazirlər Kabinetində 2029-cu ildə Azərbaycanda əhalinin siyahıyaalınmasının keçirilməsi ilə bağlı məsələlərə həsr olunmuş geniş iclas keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Prezident İlham Əliyevin "2029-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında" 2026-cı il 7 iyul tarixli Fərmanından irəli gələn vəzifələrin icrası, əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı görüləcək işlər müzakirə olunub.

İclası giriş sözü ilə açan Baş nazir Ə.Əsədov əhali haqqında ən dolğun məlumat mənbəyi olan siyahıyaalmanın demoqrafik proseslərin obyektiv qiymətləndirilməsi və ölkənin sosial-iqtisadi inkişafının planlaşdırılması baxımından önəmini vurğulayıb. Qeyd edilib ki, 2029-cu ildə keçiriləcək əhalinin növbəti siyahıyaalınması xüsusi tarixi əhəmiyyət kəsb edəcək.

"Çünki bu, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi ilə Şanlı Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı tarixi Zəfər və ölkəmizin suverenliyinin tam bərpa olunması nəticəsində müstəqillik tariximizdə ilk dəfə olaraq Azərbaycanın bütün suveren ərazisini tam şəkildə əhatə edəcək ümumrespublika əhalinin siyahıyaalınması olacaq", - deyə Ə.Əsədov əlavə edib.

Bildirilib ki, Azərbaycan Respublikası Prezidentinin Fərmanının icrasının təmin edilməsi məqsədilə Nazirlər Kabineti tərəfindən müvafiq Tədbirlər planı təsdiq ediləcək, əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, idarə, müəssisə və təşkilatların fəaliyyətinin əlaqələndirilməsi məqsədilə Baş nazirin müavininin rəhbərliyi ilə Əhalinin Siyahıyaalınmasına Yardım üzrə Mərkəzi Komissiya yaradılacaq. Birləşmiş Millətlər Təşkilatının müvafiq tələb və tövsiyələrinə, həmçinin milli prioritetlərə əsaslanaraq təşkil ediləcək əhalinin siyahıyaalınmasının ilk dəfə rəqəmsal texnologiyalar, inzibati və geoməkan məlumatlarından istifadə edilməklə keçirilməsinin nəzərdə tutulduğu vurğulanıb.

Daha sonra Dövlət Statistika Komitəsinin sədri Azər Mursaqulov əhalinin siyahıyaalınmasına hazırlıq məqsədilə görüləcək işlər barədə məruzə ilə çıxış edib.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev aidiyyəti dövlət orqanlarının (qurumlarının) informasiya ehtiyatlarında və sistemlərində olan müvafiq məlumatların Dövlət Statistika Komitəsinin məlumat bazasına inteqrasiyası istiqamətində görüləcək işlər barədə məruzə edib.

İclasa yekun vuran Baş nazir Ə.Əsədov aidiyyəti dövlət qurumlarına Prezidentin Fərmanından irəli gələn tapşırıqların, o cümlədən əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi üzrə zəruri tədbirlərin vaxtında, keyfiyyətlə və mütəşəkkil yerinə yetirilməsi barədə müvafiq tapşırıqlar verib.

# Nazirlərin görüşü...

## 2026-2027-ci illər üçün Məsləhətləşmələr Planı imzalanıb

Azərbaycanın xarici siyasəti isə beynəlxalq hüquq prinsiplərinə əsaslanan, mehriban qonşuluq, qarşılıqlı hörmət və humanizm prinsiplərinə söykənən uğurlu bir xəttdir. Regionda sabitliyin təmin olunması, münaqişələrin dinc yolla həlli və humanitar siyasəti bu kursun əsasını təşkil edir. Ölkəmiz qonşu dövlətlərlə bərabərhüquqlu və qarşılıqlı maraqlara əsaslanan əlaqələrin qurulmasına böyük önəm verir. Bu baxımdan, Azərbaycan-Rusiya əlaqələri diqqət mərkəzindədir. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun Rusiyaya rəsmi səfəri də bu baxımdan əhəmiyyətlidir.

Ceyhun Bayramovla Sergey Lavrov nədən danışıblar?

Qeyd edək ki, iyulun 17-də xarici işlər naziri Ceyhun Bayramov Rusiya Federasiyasına rəsmi səfər çərçivəsində Moskvada rusiyalı həmkarı Sergey Lavrovla görüşüb. Xarici İşlər Nazirliyindən verilən məlumata görə, nazirlər Azərbaycan-Rusiya ikitərəfli gündəliyini, o cümlədən siyasi, iqtisadi, ticarət, nəqliyyat və humanitar sahələrdə əməkdaşlıq, həmçinin, regional və beynəlxalq təhlükəsizlik məsələlərini müzakirə ediblər. Tərəflər iki ölkə arasında əldə olunmuş razılaşmaların icra vəziyyətini nəzərdən keçiriblər.

Müzakirələrdə İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın fəaliyyəti və Azərbaycan-Rusiya Biznes Şurasının rolu da daxil olmaqla, iqtisadi və ticarət əməkdaşlığının mövcud vəziyyəti və perspektivlərinə diqqət yetirilib. Qeyd olunub ki, nəqliyyat əlaqələrinin və regional nəqliyyat layihələrinin inkişafı yalnız iştirakçı dövlətlərin deyil, bütövlükdə regionun iqtisadi dayanıqlığının möhkəmlənməsinə xidmət edir. Nazirlər, həmçinin, Beynəlxalq Şimal-Cənub Nəqliyyat Dəhlizi çərçivəsində əməkdaşlığın inkişaf etdirilməsinin, multimodal daşımaların genişləndirilməsinin və logistika marşrutlarının səmərəliliyinin artırılmasının əhəmiyyətini vurğulayıblar.

Görüş zamanı humanitar sahədə əməkdaşlıq, mədəniyyət, təhsil, elm və idman sahələrində əlaqələrin inkişafı, insanlar arasında təmasların, akademik və gənclər mübadilələrinin təşviqi məsələləri də müzakirə olunub. Xəzər dənizində ekoloji vəziyyətə, o cümlədən su səviyyəsinin azalmasından irəli gələn çağırışlara diqqət çəkilib və bu istiqamətdə əməkdaşlığın vacibliyi vurğulanıb.

Nazirlər regional və beynəlxalq gündəmdə duran aktual məsələlər ətrafında da fikir mübadiləsi aparıblar. Cənubi Qafqazdakı vəziyyətə toxunan Ceyhun Bayramov bildirib ki, 44 günlük Vətən müharibəsindən sonra regionda formalaşmış yeni reallıqlar beynəlxalq hüququn prinsiplərinə - dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığına əsaslanır. Qeyd edilib ki, Azərbaycanın sülh gündəliyinə sadiqliyi, konstruktiv təşəbbüsləri və etimad quruculuğu istiqamətində atdığı addımlar normallaşma prosesinin irəliləməsinə mühüm töhfə verib.

Görüşdə Yaxın Şərqdəki vəziyyət, Rusiya-Ukrayna münaqişəsi və digər regional və beynəlxalq təhlükəsizlik məsələləri ilə bağlı da fikir mübadiləsi aparılıb. Sülh və sabitliyin təmin edilməsində diplomatik dialoqun, eləcə də beynəlxalq hüququn norma və prinsiplərinə hörmətin vacibliyi vurğulanıb.

Səfər çərçivəsində Azərbaycanın Xarici İşlər Nazirliyi ilə Rusiyanın Xarici İşlər Nazirliyi arasında 2026-2027-ci illər üçün Məsləhətləşmələr Planı nazirlər tərəfindən imzalanıb.

**C.Bayramov: Mürəkkəb mərhələni geridə qoymağa nail olmuşuq**

Sonra xarici işlər nazirləri mətbuat konfransı keçiriblər. C.Bayramov bildirib ki, yaxın keçmişdə ikitərəfli münasibətlərimizdə müəyyən çətinliklərlə üzləşmişdik: "Bu məsələ bugünkü müzakirələr zamanı da qeyd olunub. Məmnunluq hissi ilə vurğulamaq istəyirəm ki, dövlətlərimiz həmin mürəkkəb mərhələni geridə qoymağa və Rusiya-Azərbaycan münasibətlərinin bütün spektrini tam şəkildə normallaşdırmağa nail olub. Xüsusilə qeyd etmək istərdim ki, bu normallaşma ölkələrimizin rəhbərlərinin şəxsi mövqeyi sayəsində mümkün olub. Münasibətlərin tam formatda bərpası məhz bu səylərin nəticəsində həyata keçirilib".

Nazir qeyd edib ki, Azərbaycan və Rusiya çoxəsrlik tarixi, mədəni və humanitar əlaqələrlə birləşən qonşu dövlətlərdir: "Ölkələrimiz arasında münasibətlər möhkəm xarakter daşıyır, xalqlarımız arasında sıx və dərin əlaqələr mövcuddur. Bu əlaqələr öz növbəsində dövlətlərarası münasibətlərin əsasını təşkil edir".

C.Bayramov deyib ki, Azərbaycan xalqının 44 günlük Vətən müharibəsi regionda yeni reallıqlar və yeni təhlükəsizlik formatı yaradıb. Onun sözlərinə görə, bu təhlükəsizlik formatı beynəlxalq hüququn aliliyinə əsaslanır: "Ermənistan və Azərbaycan arasında normallaşma prosesi çərçivəsində son dövrlərdə baş verən tarixi hadisələr, o cümlədən sülh sazişi layihəsinin paraflanması regionda davamlı sülhün, təhlükəsizliyin və rifahın təmin olunması üçün unikal imkan yaradır. Əminliklə demək olar ki, bu gün Ermənistan və Azərbaycan arasında faktiki olaraq sülh mövcuddur".

Nazir vurğulayıb ki, Azərbaycan tərəfinin həyata keçirdiyi müsbət və sülhyönümlü təşəbbüslər, o cümlədən etimad quruculuğu tədbirləri Ermənistan və Azərbaycan arasında normallaşma prosesinin sürətlənməsinə və irəliləməsinə mühüm töhfə verib. O əlavə edib ki, sülh prosesində qalan məsələlərin həlli regionda uzunmüddətli sabitlik, təhlükəsizlik və rifah üçün zəruri şərait yaradacaq.

**"3+3" formatı çərçivəsində növbəti görüşə ev sahibliyi etməyə hazırıq**

"3+3" regional əməkdaşlıq platforması da görüşdə diqqət mərkəzində olub. Azərbaycanın XİN başçısı qeyd edib ki, Prezident İlham Əliyev bu təşəbbüsü ilk dəfə 2021-ci ildə irəli sürüb: "Qeyd etmək vacibdir ki, həmin dövrdə Cənubi Qafqazda vəziyyət və regional dinamika indiki ilə müqayisədə tamamilə fərqli idi. İndiki mərhələdə vəziyyət köklü şəkildə dəyişib. İndiyədək platforma çərçivəsində müvafiq olaraq Moskva, Tehran və İstanbulda üç iclas keçirilib. Azərbaycanın mövqeyi ondan ibarətdir ki, bu format vacib regional əməkdaşlıq mexanizmidir. Məhz bu baxımdan, 2024-cü ildə keçirilən son görüşdən təxminən bir ay sonra Azərbaycan növbəti iclasın ölkəmizdə keçirilməsini təklif edib. Biz hesab edirik ki, bu platforma iştirakçı dövlətlər üçün qarşılıqlı maraq doğuran bütün məsələlərin müzakirəsi baxımından mühüm əhəmiyyət daşıyır. Məhz belə bir yanaşma əsasında növbəti görüşün Azərbaycanda keçirilməsinə ev sahibliyi etməyə hazır olduğumuzu bir daha təsdiqləyirik".



Onun sözlərinə görə, görüşdə Xəzər mövzusu çərçivəsində məsələlərin bütün spektri də müzakirə edilib. Belə ki, Xəzər dənizinin səviyyəsinin azalması probleminə xüsusi diqqət çəkilib. Qeyd olunub ki, bu problemin həlli üçün bütün Xəzəryanı dövlətlərin səylərinin birləşdirilməsi, birgə elmi tədqiqatların aparılması və kompleks praktiki tədbirlərin həyata keçirilməsi zəruridir.

Bununla yanaşı, Azərbaycan ilk gündən Şimal-Cənub marşrutunun razılaşdırılması və inkişaf etdirilməsi prosesində ən fəal iştirak edən tərəflərdən biri olub. Nazir bildirib ki, regional ölkələr arasında nəqliyyat və logistika bağlantılarının gücləndirilməsi böyük əhəmiyyət kəsb edir: "İki böyük qonşumuzun Azərbaycan ərazisi vasitəsilə birləşdiyi Şimal-Cənub layihəsi ölkəmiz üçün mühüm və prioritet istiqamətlərdən biridir. Bu kontekstdə bir neçə il əvvəl Rusiya Federasiyası ilə ikitərəfli əsasda Azərbaycan hissəsinə dair konkret məsələlər razılaşdırılıb. Mən deyə bilərəm ki, həmin razılaşmalar vaxtında və plan üzrə icra olunur. Hazırkı mərhələdə Şimal-Cənub marşrutunun Azərbaycan istiqaməti ilə dəmir yolu vasitəsilə daşınan yüklərin həcminin 2028-ci ildə 5 milyon tona çatdırılması nəzərdə tutulur. Bu istiqamətdə hər hansı problem mövcud deyil".

Görüşdə Rusiya və Ukrayna arasında davam edən silahlı münaqişə ilə bağlı Azərbaycanın narahatlığı da ifadə olunub. C.Bayramov deyib ki, bu münaqişə daha geniş regionda sabitliyə ciddi mənfi təsir göstərməkdə davam edir: "Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərinə sadiqliyini ardıcıl şəkildə təsdiqləyir, gərginliyin azaldılmasına və münaqişənin sülh yolu ilə həllinə çağırır". Onun sözlərinə görə, regional və beynəlxalq məsələlər kontekstində Yaxın Şərqdəki vəziyyət də müzakirə edilib: "Davam edən qeyri-sabitlik şəraitində diplomatik əməkdaşlıq, dialoq və beynəlxalq hüququn norma və prinsiplərinə ciddi əməl olunması gərginliyin daha da artmasının qarşısını ala, humanitar vəziyyətin pisləşməsinin önləyə və regional, hətta daha geniş əməkdaşlığa üçün minimal şərait yarada biləcək əsas vasitələr kimi gündəlikdədir".

**Lavrov: Rusiya tərəflərə dəstək verməyə hazırdır**

Sergey Lavrov isə deyib ki, Rusiya ilə Azərbaycan arasında hökumətlərarası əlaqələr, ilk növbədə ölkələrin Baş nazirlərinin rəhbərlik etdiyi Hökumətlərarası Komissiya çərçivəsində əməkdaşlığı inkişaf edir, eləcə də parlamentlərarası dialoq fəallaşıb. Onun sözlərinə görə, iki ölkə arasında bütün səviyyələrdə xarici siyasət xətti üzrə də intensiv dialoq davam edir. İkitərəfli görüşdə müzakirə edilən əsas mövzulardan birinin ticarət-iqtisadi əməkdaşlıq olduğunu deyən Lavrov bu sahədə artım dinamikasını xüsusi qeyd edib: "Tərəflərin qarşılıqlı ticarət dövriyyəsinin daha da artırılmasında qarşılıqlı maraqlı olduğu təsdiqləndi. Ötən il ikitərəfli ticarətin həcmi təxminən 5 milyard dollara çatıb. Rusiya Azərbaycanın əsas ticari tərəfdaşlarından biri olaraq qalır və ticarət dövriyyəsinin, eləcə də birbaşa investisiyaların artırılması üçün əhəmiyyətli potensial mövcuddur".

Rusiyanın XİN başçısı deyib ki, Rusiyanın Azərbaycana yatırdığı investisiyaların həcmi təxminən 11 milyard dollar təşkil edir. O vurğulayıb ki, görüşdə mədəni-humanitar və təhsil sahələrində tamformatlı əməkdaşlığın bərpası məsələlərinə xüsusi diqqət yetirilib. "Regional və beynəlxalq gündəmdə duran aktual məsələləri ətraflı müzakirə etdik. Cənubi Qafqazda və Xəzər regionunda sabitliyin təmin edilməsində qarşılıqlı əməkdaşlığımızın vacibliyini xüsusi vurğuladıq", - deyə Rusiya XİN başçısı əlavə edib.

S.Lavrov diqqətə çatdırıb ki, Rusiya Azərbaycan və Ermənistan arasında nəqliyyat və iqtisadi kommunikasiyaların açılması, eləcə də humanitar məsələlərin həllinə dəstək verməyə hazırdır: "Əvvəlki kimi, həm Bakıya, həm də İrəvana nəqliyyat və iqtisadi kommunikasiyaların blokdan çıxarılması, humanitar məsələlərin həlli istiqamətində kömək göstərməyə hazırıq".

***Nardar BAYRAMLI***

# Azərbaycanın şəhərsalma təcrübəsi dünyanın maraq dairəsində

Azərbaycanla BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) arasında əməkdaşlığın yeni səhifəsi açılır. Bu günlərdə BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında Azərbaycan Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə UN-Habitat arasında “Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonunda ağıllı, davamlı və inklüziv yaşayış məntəqələrinə doğru - dayanıqlı şəhər inkişafı üçün inteqrəolunmuş ərazi planlaşdırması” layihəsi üzrə Töhfə Sazişi imzalanıb.

Sənədi Komitə sədri Anar Quliyev və UN-Habitatın icraçı direktoru Anaklaudiya Rossbax imzalayıblar. Saziş Azərbaycan ilə UN-Habitat arasında əməkdaşlığın yeni mərhələsinin əsasını qoyur. Bu əməkdaşlıq Böyük Qayıdışa dair II Dövlət Proqramı çərçivəsində doğma yurdlarına qayıdan sakinlər üçün daha dayanıqlı və insan mərkəzli yaşayış mühitinin formalaşdırılmasına töhfə verəcək.

Eyni zamanda, Anar Quliyev Nyu-Yorkda baş tutan Yeni Şəhər Gündəliyinin həyata keçirilməsinin ortamüddətli icmalına həsr olunmuş Yüksəksəviyyəli İclasda ölkə hesabatını təqdim edib. O bildirib ki, Azərbaycan şəhərsalma qanunvericiliyini təkmilləşdirir, yaşıl tikinti və binaların enerji səmərəliliyini təşviq edir, tikinti icazələrinin rəqəmsallaşdırılması da daxil olmaqla rəqəmsal idarəetməni gücləndirir.

## UN-Habitat ilə səmərəli əməkdaşlıq

Azərbaycan gündəliyin prioritetlərinə uyğun olaraq 2022-ci ildən etibarən BMT-nin Məskunlaşma Proqramı ilə sıx əməkdaşlıq edir. Bu əməkdaşlığın nəticəsi olaraq respublikamızda uzun illər işğal altında olmuş şəhərlərdə - Ağdamda, Zəngilanda və Xankəndidə üç milli şəhərsalma forumu keçirilib. Həmin forumlarda şəhərsalma istiqamətində qazanılan uğurlar təqdim olunmaqla yanaşı, həm də yeni hədəflər müəyyənləşdirilib.

Cari il may ayının 17-22-də isə UN-Habitat ilə sıx əməkdaşlıq çərçivəsində Azərbaycan paytaxtında BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) böyük uğurla baş tutub. BMT tərəfindən 2001-ci ildə təsis edilən Ümumdünya Şəhərsalma Forumu sürətli urbanizasiya nəticəsində şəhərlərdə yaranan çağırış və problemlərin müzakirəsi məqsədilə keçirilir. Forumun əsas koordinatoru BMT-nin Məskunlaşma Proqramıdır. İki ildən bir təşkil olunan forumda həmin dövr üçün aktual hesab edilən məsələlər müzakirəyə çıxarılır. Ölkəmizin ev sahibliyi ilə təşkil olunan WUF13 üçün aktual gündəlik müəyyənləşdirilmişdi. Belə ki. Forum “Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri” mövzusunda keçirilib.

İndiyədək Azərbaycanla UN-Habitat arasında formalaşan münasibətlər və bir komanda kimi uğurlu fəaliyyət onu deməyə əsas verir ki, gələcək əməkdaşlıq da uğurlu olacaq. Nyu-Yorkda imzalanan saziş çərçivəsində UN-Habitatın beynəlxalq ekspertləri azərbaycanlı mütəxəssislərlə birlikdə Cəbrayıl rayonunun Quycaq və Kəlbəcər rayonunun Mollabayramlı kəndləri üzrə ərazi planlaşdırılması sənədlərini birgə hazırlayacaqlar. Bununla yanaşı, Qarabağ və Şərqi Zəngəzurda dayanıqlı yaşayış məntəqələrinin layihələndirilməsi üzrə müasir yanaşmalar beynəlxalq peşəkar təşkilatların tövsiyələri nəzərə alınmaqla təkmilləşdiriləcək.

“UN-Habitat ilk dəfə olaraq Azərbaycanda bərpa, tikinti və idarəetmə xidməti vasitəsilə şəhərsalma planlaşdırılması prosesində birbaşa iştirak edəcək”, - deyə Anar Quliyev sazişi şərh edərkən bildirib. “Bu, bir sıra baxımdan çox mühüm əməkdaşlıqdır. Bir tərəfdən, həyata keçirdiyimiz layihələndirmə işlərini beynəlxalq təcrübə və ən son ekspert tövsiyələri əsasında daha yüksək səviyyəyə qaldıracaq. Digər tərəfdən isə uzun illərdir Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən Böyük Qayıdış proqramı çərçivəsində görülən və bundan sonra görüləcək işləri beynəlxalq platformalarda təqdim olunan ən müasir yanaşmalarla zənginləşdirmək imkanı yaradacaq. Biz buna “Urban Lab”, yəni “Şəhərsalma Laboratoriyası” kimi yanaşırıq. Çünki işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və yenidənqurma prosesi postmünaqişə dövründə ərazilərin inkişafı baxımından beynəlxalq ictimaiyyət üçün də maraqlı və praktik nümunə ola bilər”, - deyə Anar Quliyev əlavə edib.

Əməkdaşlığın mühüm istiqamətlərindən biri də milli insan kapitalının və institusional potensialın gücləndirilməsidir. Bu məqsədlə beynəlxalq ekspertlərin iştirakı ilə şəhərsalma, ərazi planlaşdırılması və dayanıqlı inkişaf sahələrində fəaliyyət göstərən azərbaycanlı mütəxəssislər üçün təlimlər və praktiki seminarlar təşkil olunacaq. Bu isə qabaqcıl beynəlxalq təcrübənin ölkəmizdə tətbiqinə, yerli mütəxəssislərin bilik və bacarıqlarının, eyni zamanda, işğaldan azad edilmiş ərazilərin bərpası və inkişafı istiqamətində uzunmüddətli milli ekspert potensialının artırılmasına imkan yaradacaq.

## Yeni Şəhər Gündəliyinin prinsipləri Qarabağ və Şərqi Zəngəzurda hərtərəfli şəkildə tətbiq olunur

Postmüharibə dövründə Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə reallaşdırdığı bərpa modelini fəxrlə dünyaya təqdim etmək mümkündür. Bu model dayanıqlılıq, ərazi reinteqrasiyası və insanyönümlü inkişaf prinsiplərinə əsaslanır. Qarabağ və Şərqi Zəngəzurdakı şəhər və kənd icmaları üçün kompleks Baş planlar hazırlanıb və həyata keçirilir. Bu planlar sadəcə texniki sənədlər deyil - həyatların yenidən qurulması üçün yol xəritəsidir. Regionun ümumi planlaşdırılması başa çatıb. 13,6 min kvadratkilometr ərazini əhatə edən bu plan əsasında 1,1 milyon nəfərdən çox insanın doğma şəhər və kəndlərində məskunlaşması üçün yenidənqurma işləri icra olunur. Bütövlükdə, Ermənistanın işğal etdiyi və otuz il ərzində viran qoyduğu ərazilərimizdə 44 günlük Vətən müharibəsindəki Zəfərin ardınca innovativ yanaşmaların tətbiqi ilə həyatı yenidən canlandıran genişmiqyaslı bərpa-quruculuq işləri Azərbaycan dövlətinin memarlıq və şəhərsalmaya müfəssəl baxışını aydın nümayiş etdirir. “Böyük Qayıdışa dair I Dövlət Proqramına müvafiq qaydada “yaşıl enerji” zonası elan edilmiş bu ərazilərdə 2020-2025-ci illərdə - dünya memarlıq-inşaat təcrübəsində az rast gəlinən qısa bir müddətdə 100-dən artıq yaşayış məntəqəsi, o cümlədən 12 şəhər üzrə planlaşdırma sənədləri hazırlanıb və quruculuq işlərinə başlanıb.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev Yeni Şəhər Gündəliyinin həyata keçirilməsinin ortamüddətli icmalına həsr olunmuş Yüksəksəviyyəli İclasda ölkə hesabatını təqdim edərkən bildirib ki, Yeni Şəhər Gündəliyinin prinsipləri işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda hərtərəfli şəkildə tətbiq olunur. O vurğulayıb ki, “Böyük Qayıdış” Dövlət Proqramı çərçivəsində Azərbaycan keçmiş məcburi köçkünlərin doğma yurdlarına təhlükəsiz və layiqli şəkildə qayıdışını təmin etmək məqsədilə “Daha yaxşı bərpa et” yanaşması tətbiq edir. “12 şəhərdən 8-i, həmçinin 106 qəsəbə və kənd üzrə baş planlar təsdiqlənib. Bu gün həmin ərazilərdə təxminən 90 min nəfər yaşayır, işləyir və təhsil alır. Mənzillərlə yanaşı, təhsil, səhiyyə, infrastruktur və ictimai xidmətlər də paralel şəkildə inkişaf etdirilir. 15 700-dən çox mənzilin tikintisinə icazə verilib”, - deyə komitə sədri qeyd edib.

O əlavə edib ki, üç beynəlxalq hava limanı, yeni avtomobil və dəmir yolu infrastrukturu regionun bağlantısını gücləndirir. “Ağdam və Cəbrayılda yaradılan sənaye parkları investisiya və məşğulluğu dəstəkləyir. Region, eyni zamanda yaşıl enerji zonası kimi inkişaf etdirilir, “ağıllı” şəhər və kənd konsepsiyaları, bərpaolunan enerji və iqlimə davamlı planlaşdırma yeni yaşayış məntəqələrinin əsasını təşkil edir. Bu yanaşma postmünaqişə bərpa anlayışından daha geniş məna daşıyır. Təcrübəmiz göstərir ki, şəhərlərin bərpası yalnız infrastrukturun yenidən qurulması deyil, həm də əhalinin iqtisadi imkanlarının bərpası, uzunmüddətli sülh və dayanıqlı inkişaf üçün şəraitin yaradılması deməkdir”, - deyə Anar Quliyev vurğulayıb.







## Paytaxtın baş planı: Monosentrik inkişaf modelindən polisentrik modelə keçid hədəfi

Anar Quliyev Nyu-Yorkda ölkə hesabatını təqdim edərkən Azərbaycanın şəhərsalmada istinad etdiyi fundamental prinsiplərə diqqət çəkib. Onun verdiyi məlumata əsasən, Azərbaycanın təxminən 10,2 milyon nəfərlik əhalisinin 59 faizə yaxını şəhərlərdə yaşayır. Müstəqilliyini bərpa etdikdən sonra ölkəmiz insanların həyat səviyyəsinin yüksəldilməsi, təhsil, səhiyyə, mənzil və ictimai xidmətlərə çıxışın genişləndirilməsi istiqamətində mühüm nailiyyətlər əldə edib. O bildirib ki, urbanizasiyanı dayanıqlı inkişafın strateji hərəkətverici qüvvəsi kimi qəbul edən Azərbaycan Yeni Şəhər Gündəliyinin prinsiplərini “Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sənədinə inteqrasiya edib.

“Son on il ərzində Azərbaycan Yeni Şəhər Gündəliyinin əsas istiqamətləri üzrə genişmiqyaslı islahatlar həyata keçirib. Bu islahatların əsasını şəhərsalmanın ənənəvi ərazi planlaşdırması yanaşmasından inteqrasiya olunmuş və dayanıqlı inkişafın strateji alətinə çevrilməsi təşkil edir. Bizim planlaşdırma yanaşmamız torpaq istifadəsini, mənzil təminatını, nəqliyyatı, infrastrukturu, ictimai xidmətləri, iqtisadi inkişafı və iqlim dayanıqlılığını vahid ərazi baxışı çərçivəsində birləşdirir.

Hazırda ölkənin 79 şəhərindən 68-i 20 illik baş planlarla əhatə olunub. Yeni nəsil baş planlarda insan mərkəzli yanaşma, piyada və velosiped infrastrukturu, ictimai nəqliyyat, balanslaşdırılmış zonalaşdırma, yaşıl infrastruktur və əlçatanlıq əsas prioritetlər kimi müəyyən edilib”, - deyə komitə sədri əlavə edib.

Anar Quliyev qeyd edib ki, şəhərsalma prosesində rəqəmsal texnologiyalardan geniş istifadə olunur, eyni zamanda tarix-memarlıq və mədəni irs müasir inkişaf yanaşmalarına inteqrasiya edilir. “Bu yanaşmanın ən parlaq nümunələrindən biri Bakı şəhərinin 2040-cı ilədək inkişafını əhatə edən Baş Planıdır. Bu sənəd paytaxtın monosentrik inkişaf modelindən polisentrik modelə keçidini nəzərdə tutur. Qarşılıqlı əlaqəli şəhər alt mərkəzlərinin formalaşdırılması şəhərin tarixi mərkəzinə düşən yükün azaldılmasına, əlçatanlığın və mobilliyin artırılmasına, Bakının daha dayanıqlı və əlverişli şəhərə çevrilməsinə xidmət edir. Ümumən mənzil təminatı Azərbaycanın Yeni Şəhər Gündəliyinin həyata keçirilməsinin əsas istiqamətlərindən biri olaraq qalır”, - deyə o vurğulayıb.

Anar Quliyev həmçinin bildirib ki, iqlim dayanıqlılığı Azərbaycanın şəhər inkişafı siyasətinin ayrılmaz hissəsidir. Bununla bağlı fikirlərini ifadə edən komitə sədri vurğulayıb: “Bakı və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun inkişafına dair 2025-2030-cu illəri əhatə edən Dövlət Proqramı ictimai nəqliyyatı, piyada hərəkətini, yol təhlükəsizliyini, ictimai məkanları və ekoloji dayanıqlılığı təşviq edir.

COP29 çərçivəsində Azərbaycan şəhərsalma, nəqliyyat, səhiyyə, energetika və ətraf mühit sahələrində inteqrasiyalı fəaliyyətləri təşviq edən Dayanıqlı və Sağlam Şəhərlər üçün Çoxsektorlu Fəaliyyət Platformasını (MAP) irəli sürüb. Həmçinin qlobal iqlim və şəhər gündəlikləri arasında əlaqələri gücləndirmək məqsədilə Bakı Davamlılıq Koalisiyasını yaradıb. WUF13 çərçivəsində Ümumdünya Şəhərsalma Forumlarına ev sahibliyi edəcək şəhərlərin qoşulması ilə bu təşəbbüs daha da genişlənib”.

Anar Quliyev əlavə edib ki, UN-Habitat ilə sıx əməkdaşlıq çərçivəsində Azərbaycanın ilk Milli Şəhər Siyasəti hazırlanır. “Son on ildə əldə edilən təcrübə və həyata keçirilən islahatlara əsaslanaraq Azərbaycan Yeni Şəhər Gündəliyinin icrasını daha da sürətləndirmək əzmindədir. Bu öhdəlik Azərbaycan Respublikası Prezidentinin qərarı ilə 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan edilməsində öz əksini tapıb. Bu qərar dayanıqlı şəhər inkişafının institusional, normativ və praktiki əsaslarının daha da gücləndirilməsi istiqamətində qətiyyətimizi nümayiş etdirir. Azərbaycan, eyni zamanda, UN-Habitatın “Hamı üçün Adekvat Mənzil” üzrə Açıq Tərkibli Hökumətlərarası Ekspert İşçi Qrupuna həmsədrlik etməklə qlobal mənzil gündəliyinin irəliləməsində fəal iştirak edir. Azərbaycan Yeni Şəhər Gündəliyinin həyata keçirilməsini ölkə daxilində sürətləndirməklə yanaşı, üzv dövlətlər və tərəfdaşlarla əməkdaşlığı gücləndirmək, həmçinin WUF13 və “Bakı Fəaliyyətə Çağırış” sənədinin nəticələrini irəli aparmaqla qlobal səviyyədə də bu prosesə töhfə verməyə hazırdır”, - deyə komitə sədri vurğulayıb.

## WUF13-ün nəticələri Yeni Şəhər Gündəliyinin onillik icmalına mühüm töhfə verir

BMT-nin Dayanıqlı İnkişaf üzrə Yüksək Səviyyəli Siyasi Forumu çərçivəsində keçirilən “Local2030 Coalition” adlı xüsusi tədbirdə də Azərbaycan təcrübəsinə diqqət çəkilib. Tədbirdə çıxışı zamanı Anar Quliyev bildirib ki, Bakıda baş tutan Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası 176 ölkədən 58 min iştirakçını bir araya gətirib. Yeni Şəhər Gündəliyinin irəliləməsi üçün əsas qlobal platforma kimi WUF13 qlobal öhdəliklərdən yerli icraya keçidə güclü diqqət yetirib.”Forumda nazirlər və digər yüksəkvəzifəli şəxslərlə yanaşı, 130 bələdiyyə başçısı da iştirak edib və bu, qlobal şəhər gündəliyinin formalaşmasında yerli rəhbərliyin güclü iştirakını nümayiş etdirib. Vətəndaş cəmiyyətinin xüsusilə nəzərəçarpan rolu var idi. WUF-da ilk dəfə olaraq QHT Forumu çağırılıb və bu, vətəndaş cəmiyyəti təşkilatlarının qlobal şəhər dialoquna yerli köklü perspektivləri və həlləri gətirməsi üçün xüsusi bir platforma yaradıb. Bu şəkildə, WUF13-ün nəticələri Yeni Şəhər Gündəliyinin onillik icmalına mühüm töhfə verir, onun DİM 11 və daha geniş “2030 Gündəliyi” ilə uyğunluğunu gücləndirir.

2027-ci il DİM Zirvəsinə doğru irəlilədikcə, mesajımız aydındır - 2030-cu ilə gedən son yol yerli, eyni zamanda, ortaq bir yol olmalıdır. Azərbaycan WUF13-ün nəticələrini təşviq etmək üçün öz təcrübəsini verməyə, üzv dövlətlər və tərəfdaşlarla sıx əməkdaşlıq etməyə hazırdır”, - deyə komitə sədri vurğulayıb

BMT rəsmiləri də Azərbaaycanın yeni Şəhər Gündəliyinin formalaşmasında rolunu yüksək dəyərləndirirlər. UN-Habitatın icraçı direktoru Anaklaudiya Rossbax bildirib ki, Ümumdünya Şəhərsalma Forumunun Bakıda keçirilən 13-cü Sessiyasından sonra Azərbaycanla uzunmüddətli əməkdaşlığımız formalaşıb. Onun sözlərinə görə, əməkdaşlığın əsasını təcrübə, ekspertiza və bilik mübadiləsi təşkil edir. “WUF13-ün uğuruna əsaslanaraq, məqsədimiz Azərbaycanda həyata keçirilən layihələrin beynəlxalq bilik, təcrübə və ekspertizadan faydalanmasını təmin etməkdir. Eyni zamanda, Azərbaycanda şəhər transformasiyası sahəsində baş verən prosesləri də öyrənmək istəyirik. Bu, qarşılıqlı əməkdaşlıqdır. Biz, eyni zamanda həm həyata keçirir, həm öyrənir, həm də təcrübəmizi bölüşürük”,- deyə UN-Habitatın icraçı direktoru bildirib.

O deyib ki, Azərbaycanın həm COP29-a, həm də Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına ev sahibliyi etməsi daha geniş əməkdaşlıq üçün möhkəm zəmin yaradıb. “Hazırda dünyanın müxtəlif ölkələrində tətbiq olunan uğurlu təcrübələrin toplanaraq hökumətlərarası müzakirə prosesinə daxil edilməsi imkanlarını müzakirə edirik. Məsələn, Azərbaycan Mənzil Məsələləri üzrə Açıq Tərkibli İşçi Qrupuna həmsədrlik edir. Bu, mühüm tövsiyələrin hazırlanacağı, eyni zamanda, müxtəlif ölkələrin təcrübələrinin bir araya gətiriləcəyi vacib prosesdir. Məqsəd həmin təcrübələri qlobal mənzil böhranının həlli üçün üzv dövlətlərin, ölkələrin və şəhərlərin istifadəsinə təqdim olunan ümumi faydaya çevirməkdir”, - deyə A.Rossbax vurğulayıb.

*Mübariz ABDULLAYEV*

# Azərbaycan və Türkiyənin yeni sazişi

## Aqrar sahədə əməkdaşlıq genişləndiriləcək

**Azərbaycanın Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi (AXA) ilə Türkiyənin Toxum Yetişdiriciləri Alt Birliyi (TYAB) arasında Niyyət və Əməkdaşlıq Protokolu imzalanıb. Sənəd iki ölkə arasında kənd təsərrüfatı və toxumçuluq sahələrində əməkdaşlığı daha da möhkəmləndirmək, bu sahədə məlumat, təcrübə mübadiləsini genişləndirmək, müasir texnologiyaların təşviqində qarşılıqlı əlaqəni təmin etmək, həmçinin aqrar sahədə insan kapitalının inkişafına və uzunmüddətli texniki əməkdaşlığın gücləndirilməsinə töhfə verməkdir. Protokola əsasən, tərəflər təlimçilərin hazırlanması və fermerlər üçün təlimlərin təşkili, toxumçuluq və sertifikatlaşdırma sistemlərinin inkişafı, toxum istehsalı, emalı, saxlanması və logistikası sahələrində əməkdaşlıq edəcəklər. Bununla yanaşı, kənd təsərrüfatının mexanikləşdirilməsi, dəqiq əkinçilik, rəqəmsal və "ağıllı" kənd təsərrüfatı texnologiyalarının tətbiqi, bərpaolunan enerji həllərinin təşviqi, aqrar sahədə davamlılığın gücləndirilməsi, kənd təsərrüfatı yayımı və fermerlərin bilik və bacarıqlarının artırılması istiqamətində birgə fəaliyyət həyata keçiriləcək. Məlumat və texnologiya transferinin genişləndirilməsi, aqrar innovasiyaların təşviqi və qabaqcıl beynəlxalq təcrübələrin paylaşılması da əsas fəaliyyət istiqamətlərindən biri olacaq.**

### "Dost Aqropark"- azad ərazilərdə "ağıllı kənd təsərrüfatı" quruculuğu modeli

Türkiyə bütün sahələrdə olduğu kimi kənd təsərrüfatı sahəsində də Azərbaycanın etibarlı tərəfdaşıdır. İki ölkə arasında aqrar tədqiqatlar, təhsil, pambıqçılıq, toxumçuluq, baytarlıq, aqrar sığorta və digər sahələr üzrə səmərəli əməkdaşlıq uğurla davam edir. Hər iki ölkə aqrar sahədə ənənəvi istehsal və emal üsullarından müasir aqrar-sənaye modelinə keçidi sürətləndirmək, "ağıllı kənd təsərrüfatı" texnologiyalarının tətbiqini genişləndirmək, sıfır tullantı, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinin tətbiqini təmin etmək, ekoloji təmiz və halal qida prinsipi ilə fəaliyyət göstərən kənd təsərrüfatı müəssisələri və aqroparklar yaratmaq üçün birgə təşəbbüsləri dəstəkləyir.

İki qardaş ölkə azad edilmiş ərazilərdə də aqrar planları gerçəkləşdirmək üçün səyləri artırmaq niyyətindədir. Bu məqsədlə türk iş adamlarının müasir aqroparklara sərmayə yatırması üçün təşviqedici addımlar atılacaq. Bu prosesdə 4 il əvvəl Zəngilan rayonunda təməli qoyulmuş və birinci mərhələsi istifadəyə verilmiş "Dost Aqropark" ağıllı kənd təsərrüfatı kompleksi nümunəvi model olacaq. Qeyd edək ki, kənd təsərrüfatı və heyvandarlığın inkişafında müasir aqrar model olan "Dost Aqropark" layihəsinin birinci mərhələsində 5200 kvadratmetrlik qapalı, 113 min kvadratmetrlik açıq tipli heyvandarlıq kompleksləri tikilib. Kompleksə 3500 baş cins qaramal gətirilib və əkinçilik məhsullarının istehsalı həyata keçirilib. "Dost Aqropark"ın bölgəyə gətirdiyi, otlaqlarda bəslənərək yetişdirilən və kəsimi aparılmış heyvanlardan alınan ət məhsulları "Made in Qarabağ" brendi ilə bazarlara çıxarılır. Azad ərazilərdə bu tipli aqrar modellərin sayının artırılması, eləcə də "ağıllı kənd təsərüfatı" layihələrinin tətbiqi məqsədilə müasir, ekoloji təmiz məhsul prinsipi üzrə istehsal və texnika sahələrinin yaradılması nzəərdə tutulur. Bundan başqa, Türkiyə şirkətləri ölkəmizdə yeni cins heyvanların yetişdirilməsi üçün maldarlıq, eləcə də toxumçuluq və şitilçilik sahələri salınmasında yaxından iştirak etmək, aqrar komplekslər yaratmaq, ölkəmizdə toxum, gübrə və kənd təsərrüfatı ləvazimatlarına tələbatını ödənilməsinə öz töhfələrini vermək niyyətindədirlər. İki qardaş ölkənin birgə aqrar sənaye şəbəkəsinin formalaşdırılması və dünya bazarına çıxarılması üçün "Aqro Market" platformasının qurulması da əsas planlardan biridir.

### Türkiyə təcrübəsinin mənimsənilməsi



Azərbaycanın istehsal etdiyi kənd təsərrüfatı məhsullarının Türkiyə vasitəsilə Avropa bazarlarına ixracının genişləndirilməsi müasir ixrac-tranzit siyasətində də mühüm yer tutur. Eyni zamanda, Azərbaycan və Türkiyə aqrar sahədə əməkdaşlığı artırmaq, birgə istehsal və ixrac şəbəkəsini yaratmaq məramı və niyyəti həm də türk dövlətlərinin vahid iqtisadi hədəf prinsiplərini əks etdirir. 2024-cü il iyulun 6-da Şuşada Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşündə imzalanan Qarabağ Bəyannaməsinin də əsas prioritetlərindən biri üzv ölkələr arasında çoxşaxəli iqtisadi layihələrin icrasıdır. Sənəddə iqtisadi tərəfdaşlığın daha da möhkəmləndirilməsi və dərinləşdirilməsi üçün yeni iqtisadi-ticari strategiyanın formalaşdırılması və bu çərçivəyə uyğun olaraq iqtisadiyyatın bütün sahələrində, o cümlədən aqrar bölmədə ölkələrin tam potensialından və imkanlarından istifadə edilməsinin vacibliyi öz əksini tapıb.

Onu da qeyd edək ki, ölkəmizdə "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" qəbul edilib və yeni sənədin əsas istiqamətlərindən biri də aqrar sahədə inkişaf etmiş ölkələrin təcrübəsindən istifadədir. Dövlət Proqramında yeni dəstək mexanizmləri, su və torpaq ehtiyatlarından səmərəli istifadə, aqrar emal və logistika infrastrukturunun inkişafı, eləcə də fermerlərin müasir aqrar xidmətlərə çıxışının genişləndirilməsi və digər məsələlər müəyyən olunub. Həmin sahələrlə bağlı qardaş Türkiyənin böyük təcrübəsi var. Bu baxımdan türkiyəli fermerlərin təcrübəsini mənimsəmək rəqabətədavamlı kənd təsərrüfatı məhsullarının emalı sənayesinin qurulmasına böyük töhfə verə bilər.

### Yeni kadr hazırlığı və rəqəmsal idaretmə

Türkiyənin aqrar elm mərkəzləri də kifayət qədər güclüdür və kənd təsərrüfatı müəssisələri ilə birbaşa koordinasiyalı işbirliyi qurulub. Azərbaycanda aqrar sahə ilə bağlı müasir kadr ordusunun yetişdirilməsində bu elmi innovasiya sektorlarının mühüm əhəmiyyəti böyük ola bilər. Məhz bu səbəbdən əməkdaşlıq çərçivəsində azərbaycanlı mütəxəssislər, texniki heyət və qabaqcıl fermerlər üçün Türkiyədə tətbiqi təlim proqramları və texniki tanışlıq səfərləri təşkil olunacaq. Türkiyənin Tətbiqi Fermer Təlimi Layihəsi çərçivəsində həyata keçiriləcək proqramlar toxumçuluq, müasir kənd təsərrüfatı texnologiyaları, rəqəmsal və dəqiq əkinçilik, sertifikatlaşdırma sistemləri, kənd təsərrüfatı texnikasından səmərəli istifadə və digər aktual mövzuları əhatə edəcək. Eyni zamanda, iştirakçılar aqrar sahədə fəaliyyət göstərən müəssisələrin və elmi-tədqiqat institutlarının qabaqcıl təcrübəsi ilə yaxından tanış olmaq imkanı qazanacaqlar.

Hər iki ölkə, həmçinin rəqəmsal texnologiyalar və idarətmə sahəsində də birgə əməkdaşlıq imkanlarını artırmağı nəzərdə tutur.

*E.CƏFƏRLİ*

# Beynəlxalq Valyuta Fondu nikbindir

## Azərbaycanda səfərdə olan BVF missiyası iqtisadi sabitliyin dayanıqlı olacağını bəyan edib

**Mərkəzi Bankın (MB) baş direktoru Vüqar Əhmədov ölkəmizdə səfərdə olan və Beynəlxalq Valyuta Fondunun (BVF) Azərbaycan üzrə missiyası rəhbəri Anna Bordonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə qlobal iqtisadiyyatda və maliyyə bazarlarında gedən proseslərin ölkə iqtisadiyyatına, makroiqtisadi və maliyyə sabitliyinə təsirləri, eləcə də iqtisadiyyatın inkişaf meyilləri və inflyasiya proqnozları müzakirə olunub. Tərəflər arasında pul siyasətinin ötürücülüyünün təkmilləşdirilməsi və banklararası bazarın inkişafı istiqamətində həyata keçirilən təşəbbüslər, həmçinin cari il və ortamüddətli dövrdə pul siyasəti və maliyyə sabitliyi siyasətinin əsas prioritetləri barədə də fikir mübadiləsi aparılıb.**

### İqtisadi artım qeyri-neft hesabına təmin olunacaq

Beynəlxalq Valyuta Fondu 2026-cı ildə Azərbaycan iqtisadiyyatının orta artım tempi ilə inkişaf edəcəyini, maliyyə sabitliyinin dayanıqlılığının təmin olunacağını, bank sektorunda dinamikanın qorunub saxlanılacağını proqnozlaşdırır. Fond tərəfindən bir neçə ay əvvəl dərc olunmuş "World Economic Outlook" hesabatında Azərbaycan iqtisadiyyatında 1,5-2 faiz artımın olacağı fərz edilir. Neft sektorunda əlavə dəyərin azalacağı, qeyri-neft bölməsində inkişafın yüksələcəyi proqnozlşadırılır. Bu, qlobal enerji bazarlarında qiymət dəyişkənliyi və əsasən, neft hasilatının azalması hesabına baş verəcək.

Fondun təhlil qrupu hesab edir ki, ortamüddətli dövrdə Azərbaycan iqtisadiyyatında artımı formalaşdıran mənbələrdə mühüm rol oynayan neft-qaz sektorunda fiskal daxiolmaların azalmasına baxmayaraq, qeyri-neft mənbələri inkişafın əsas drayverləri olacaq. Ortamüddətli perspektivdə neftdənkənar sahələrin illik artım tempi 3 faiz təşkil etməklə ümumi inkişafın təmin olunmasına töhfə verəcək. Qeyri-neft sektorunun artmasında əsas amillər biznes sektorunun fəallığının yüksələməsi, tikinti-inşaat, xidmət, turizm sahələrində yeni əlavə dəyərin formalaşması, neftdən kənar sahələrdə yığım mənbələrinin genişlənməsi, şəffaflaşma ilə bağlı görülən tədbirlər, bölgələrdə yeni müəssisələrin yaradılmasıdır.

BVF-nin cari və ortamüddətli dövr üzrə ssenarilərinə əsasən, ortamüddətli dövrdə ölkədə qeyri-neft ÜDM-nin həcminin davamlı artaraq ÜDM-də payı 80-82 faizə çatacaq. Fond Azərbaycan hökumətini neft amili nəzərə alınmadan yeni iqtisadi model hazırlayaraq həyata keçirdiyi islahatların müsbət səmərə verəcəyinə də əminliyini ifadə edib. Fond azad biznesin inkişaf etdirilməsi, sahibkarlıq fəaliyyəti ilə bağlı qanunvericiliyin daha təkmilləşdirilməsini müsbət dəyərləndirib, eyni zamanda, sahibkarlıq sektorunda maliyyələşmə mexanizmlərinin təkmilləşdirilməsini və bankların özəl sektora daha əlçatan kreditlər verməsini də vacib sayır. Tövsiyələrə əsasən, maliyyə bazarının inkişaf etdirilməsi, biznesin və ailə təsərrüfatlarının bank-maliyyə xidmətlərinə sərbəst çıxışının təmin edilməsi qeyri-neft sektorunun inkişafını daha da sürətləndirə bilər.

### BVF illik inflyasiyanı 5-6 faiz proqnozlaşdırır

BVF hesab edir ki, cari ildə illik inflyasiyanın 5-6 faiz intervalında olacağı proqnozlaşdırılır. İnflyasiya üzrə artım istiqamətində dəyişikliklər əsasən xarici mənşəli xərc amillərinin fəallaşmasından yarana bilər. Bu amillərə qlobal ərzaq qiymətlərinin artım tempinin yüksəlməsi, ticarət tərəfdaşlarında inflyasiya təzyiqlərinin aktivləşməsi və nominal effektiv məzənnənin möhkəmlənmə tempinin səngiməsi aiddir. Belə ki, cari ilin ikinci rübündə artan geosiyasi gərginlik inflyasiyanın risklər balansında xarici amillərin rolunu yüksəldib. Yaxın Şərqdə baş verən münaqişə təchizat zəncirlərində maneələr yaratmaqla nəqliyyat və sığorta xərclərinin yüksəlməsinə, eyni zamanda, qlobal enerji bazarlarında artan istiqamətdə qiymət dəyişkənliyinin güclənməsinə səbəb olub. İlin qalan dövründə bu proseslərin davam etməsi ticarət tərəfdaşlarında inflyasiyanın dinamikasını müəyyən edən əsas amil olacaq. Ümumilikdə, proqnozlara görə, inflyasiyanın əhəmiyyətli hissəsinin təklif amilləri hesabına formalaşacağı gözlənilir.

Xatırladaq ki, BVF ilə yanaşı, digər beynəlxalq maliyyə institutları tərəfindən də cari il üzrə inflyasiya proqnozları dəyişdirilib. Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Asiya İnkişaf Bankı, "Standart & Poor's" növbəti yarımillikdə idxal inflyasiyasının ticarət tərəfdaşlarındakı inflyasiya ilə yanaşı, Mərkəzi Bankın yürüdəcəyi nominal effektiv məzənnənin dinamikasından da asılı olacağını yəqin edir.



### Strateji hədəf birrəqəmli inflyasiya dəhlizinin qorunub saxlanmasıdır

Mərkəzi Bank isə baza ssenarisi üzrə qiymət indeksinin (may proqnozlarına görə) 2026-cı ildə 5,9 faiz, 2027-ci ildə isə 4,5 faiz olacağını gözləyir. Qeyd edək ki,

2026-cı ilin birinci yarısında inflyasiya 5,7 faiz təşkil edib. İnflyasiya səbətində qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə 6,7 faiz, qeyri-qida məhsulları üzrə 3,8 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 5,7 faiz artıb.

Mərkəzi Bank bəyan edir ki, 2026-cı ildə inflyasiya faktoru əsas strateji alətlərdən biri olaraq qalacaq. Məqsəd birrəqəmli inflyasiya dəhlizinin qorunub saxlanmasıdır. MB bəyan edir ki, potensial riskləri nəzərə alaraq ortamüddətli dövrdə büdcə xərclərinin və kredit qoyuluşlarının inflyasiyaya təsirləri xüsusi diqqətdə saxlanılmalıdır. Bütün bu amilləri ümumi təsnifləşdirdikdə, 2026-cı ildə daxili və xarici bazarlarda baş verəcək dəyişikliklərdən asılı olaraq istehlak qiymətləri dəhlizinin formalaşacağı istisna deyil. Bu baxımdan inflyasiyanın azalacağına arxayın olub prosesi nəzarətsiz buraxmaq qeyri mümkündür. MB öz mandatına uyğun olaraq zəruri nəzarət alətlərini davam etdirəcək. Nazirlər Kabinetinin 15 iyul 2023-cü il tarixli sərəncamından irəli gələn tələbləri 2026-cı ildə də əsas yol xəritəsi kimi diqqətdə saxlanılacaq. Həmin sənədə əsasən, ölkədə inflyasiyanın iqtisadi artım üçün məqbul səviyyədə saxlanılması və bu sahədə qurumlararası koordinasiyanın gücləndirilməsi tədbirləri növbəti il üçün də aktualdır. Nəzərə alsaq ki, gələn il büdcə xərclərinin irihəcmli artımları da nəzərdə tutulub və bu, inflyasiya təzyiqlərini yüksəldə bilər. Ona görə də hökumət bu riskləri də nəzərə alaraq xərclərdə maksimum ehtiyatlı davranaraq izafi xərclər və pul kütləsi yaranmasının qarşısını almağa çalışacaq. Ələlxüsus da monetar və fiskal siyasətin sıx əlaqələndirilməsi istiqamətində görülmüş səmərəverici tədbirlər yenə də əsas çağırış kimi iqtisadi blokun masasında qalacaq.

*E.CƏFƏRLİ*

# SOCAR "Üstyurt" layihəsi üzrə seysmik məlumatların emalının başa çatacağı tarixi açıqlayıb

SOCAR-ın operatoru olduğu Özbəkistanın "Üstyurt" geoloji-kəşfiyyat layihəsi çərçivəsində toplanmış seysmik məlumatların həcminin böyük olduğu nəzərə alınaraq emalının 2027-ci ilin birinci rübündə başa çatdırılması gözlənilir.

Bu barədə AZƏRTAC-ın sorğusuna cavab olaraq SOCAR-dan bildirilib.

Qeyd olunub ki, geoloji ehtiyatlar barədə konkret rəqəmlərin açıqlanması əldə edilmiş məlumatların tam analiz edilməsindən sonra mümkün olacaq.

"Geoloji seysmik məlumatların emalı və interpretasiyası mərhələsindən sonra kəşfiyyat quyusunun planlaşdırılması işinə başlanılacaq. Məlumatların tam analiz edilməsindən sonra qərarlar barədə informasiya mətbuata açıqlanacaq",- deyə məlumatda bildirilib.

Qeyd edək ki, "Üstyurt" investisiya bloklarının (Boyterak, Terenqquduq, Birqori, Xaroy, Qoraqalpoq və Qulboy) kəşfiyyatı, işlənməsi və hasilatı üzrə Pay Bölgüsü Sazişi Azərbaycan-Özbəkistan enerji əməkdaşlığı strategiyasının həyata keçirilməsində mühüm mərhələ hesab olunur.

Xatırladaq ki, 2025-ci il iyulun 24-də Özbəkistanın Energetika Nazirliyi, SOCAR və "Özbəkneftqaz" SC Üstyurd neft-qaz regionunun investisiya bloklarında geoloji kəşfiyyat işlərinin aparılmasını və sonrakı karbohidrogen hasilatını nəzərdə tutan Hasilatın Pay Bölgüsü Sazişində (HPBS) iştirak payları belədir: bp - 40 faiz, "Uzbekneftegaz" SC - 30 faiz və SOCAR (operator) - 30 faiz.

# Turist axını niyə azalır?

## Yeni Dövlət Proqramında turizmi inkişaf etdirmək üçün vacib istiqamətlər müəyyənləşib

**2026-cı ilin yanvar-may aylarında Azərbaycana dünyanın 186 ölkəsindən 871,7 min əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 11 faiz azdır. Ölkəmizə gələn turistlərin 27,2 faizi Rusiya Federasiyası, 22 faizi Türkiyə, 8,4 faizi İran, 5 faizi Gürcüstan, 4,5 faizi Qazaxıstan, 3,2 faizi Özbəkistan, 2,9 faizi Hindistan, 2,7 faizi Pakistan, 2,3 faizi Çin, 2 faizi İsrail, 1,8 faizi Səudiyyə Ərəbistanı, 1,6 faizi Ukrayna, 1,4 faizi Türkmənistan, hər birindən 1,1 faiz olmaqla Almaniya və Böyük Britaniya, 12,8 faizi digər ölkələrin payına düşür. Qeyd edilən ölkələrdən əsas etibarilə İran, Pakistan, İsrail, Səudiyyə Ərəbistanı və digər körfəz ölkələrindən gələnlərin sayında azalma baş verib. Körfəz ölkələrindən gələnlərin sayı 31,6 faiz azalaraq 105,2 min nəfərə düşüb. Ancaq Avropa İttifaqı (Aİ) regionundan gələnlərin sayında artım qeydə alınıb. Belə ki, 2025-ci ilin yanvar-may ayları ilə müqayisədə 2026-cı ilin yanvar-may aylarında Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 13,3 faiz artaraq 44,2 min nəfər təşkil edib. MDB ölkələrindən gələnlərin sayı isə 3 faiz artaraq 336,5 min nəfərə bərabər olub.**

### Geosiyasi risklər körfəz ölkələrindən axını xeyli azaldıb

Azərbaycana turist axınının azalması əsasən regiondakı geosiyasi gərginliklər, İranın Hörmüz boğazını qapatmasından sonra logistika pozulmalarının aviasektora təsirləri, Yaxın Şərqdəki münaqişələr və Hindistan-Pakistan arasındakı problemlərlə bağlıdır. Qeyd edilən bölgələrdə davam edən münaqişələr, eləcə də İran ətrafındakı vəziyyət və körfəz ölkələrinin aviaşirkətlərinin bəzi uçuşları dayandırması bu regiondan gələn turistlərin sayına kəskin mənfi təsir göstərib. Göründüyü kimi Azərbaycana gələn turistlərin say tərkibində ən kəskin azalma da adıçəkilən region ölkələridir. Oman, Pakistan, Qətər, Küveyt, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı və digər regionlardan gələn turistlərin sayında turist gəlişində düşüşün əsas səbəbləri həmin ölkələrdə hava reyslərində yaranmış çətinliklər, Hörmüz boğazının qapadılmasından sonra yanacağın qiymətinin artması ilə əlaqədar aviakompaniyalarda qiymət və xidmət tarazlığının pozulması, təyyarə biletlərində qiymət artımları və s. ilə bağlıdır. Bu isə həmin turistlərin səfərlərinə mənfi təsir göstərib.



### Təyyarə biletlərinin bahalaşması da səfərlərə təsir edir

Bununla, yanaşı, son 6 ayda qlobal bazarda təyyarə yanacağının bahalaşması aviakompaniyaların təyyarə biletlərinin qiymətini artırmağa məcbur edib, ötən illə nisbətdə aviareyslərdə ən azı 20 faiz artım var. Bu amil də turistlərin coğrafi baxımdan yaxın ölkələrə və gəmi ilə səyahətlərinə təsir edir. Bu səbəbdən ölkəmizə turist paketində xüsusi yer tutan ərəb və Hindistan vətəndaşlarının sayı xeyli aşağı düşüb. Son aylarda Aralıq-Qara dəniz regionlarında yerləşən ölkələrə, o cümlədən Gürcüstana gəmi səyahətlərinin sayının artması da bunu təsdiləyir.

**Son 6 ayda qlobal bazarda təyyarə yanacağının bahalaşması aviakompaniyaların təyyarə biletlərinin qiymətini artırmağa məcbur edib, ötən illə nisbətdə aviareyslərdə ən azı 20 faiz artım var. Bu amil də turistlərin coğrafi baxımdan yaxın ölkələrə və gəmi ilə səyahətlərinə təsir edir. Bu səbəbdən ölkəmizə turist paketində xüsusi yer tutan ərəb və Hindistan vətəndaşlarının sayı xeyli aşağı düşüb**

Yuxarıda qeyd edilən səbəblərdən başqa, bir sıra amillər var ki, bu da Azərbaycana turist axınının artmasına mane olur. Bunlar əsas etibarilə birbaşa daxili amillərdir. Bura turizm xidmətlərinin təşkilindəki nöqsanlar, qiymətlərin baha olması, turistlərin yerləşdirilməsindəki bahalı infrasrtruktur obyektlərinin daha çoxluğu və regionlarda kiçik və fərdi turist məntəqələrinin sayının az olması ilə əlaqədardır.

### Xidmət nöqsanları, qiymət uyğunsuzluqları...

Azərbaycan zəngin sərvətlərə və irsə sahibdir, infrastruktur və nəqliyyat, otel və yerləşdirmə yerləri ən müasir tələblərə uyğundur. Ölkəmizdə viza rejimi də olduqca sadə və əlverişlidir. "ASAN Viza" elektron portalının fəaliyyəti ikitərəfli vizasız gediş-gəliş sazişləri üçün hüquqi istinadlardan biridir və xaricilərin ölkəmizdə 30 günədək qalmaq hüququ verir. Avropa İttifaqına üzv ölkələrin vətəndaşları üçün də viza rejimi xeyli sadələşdirilib. Bu amillər turizm üçün mühüm əhəmiyyət daşıyır. Bütün bunlara baxmayaraq, turizmdə ciddi problemlər qalır, xüsusilə də xidmət və qiymət bölmələri, turizstlərin yerləşdirilməsi üçün əlavə infrastrukturların təkmiləşdirilməsinə ehtiyac vardır.

Statistika göstərir ki, Azərbaycanda turizm paketinin qiymətləri bahadır. Xüsusilə də 4 və 5 ulduzlu hotellərin qiymətlərində artım daha çoxdur. Beynəlxalq onlayn turizm platformaları olan "TripAdvisor", "Four Square", "Booking.com" bronalaşdırma portallarında yerləşdirilmiş qiymət cədvəlindən də aydın olur ki, cari ilin ilk 5 ayında Azərbaycandakı 5 ulduzlu hotellərdə bir günlük orta qiymət təxminən 300 manat təşkil edir. Regionlarda isə aşağı klaslı turizm paketləri yoxdur, kənd turizmi çox zəifdir.

### Problemlər hökuməti də düşündürür

Bütün dünyada turizm enerji daşıyıcılarından və İT sektorundan sonra ən çox valyuta gətirən sektor hesab olunur. Turizm iş yerlərinin yaradılması, iqtisadi fəallığın artması, ölkənin gəlirlərinin yüksəlməsi və büdcəyə vergi yığımlarının həcminin çoxalmasında mühüm rol oynayır. Eləcə də turizm sənayesi xidmət sektoru, aqrar və yeyinti sahəsinin inkişafına təkan verir. Ona görə də bu sahənin inkişafı üçün çoxşaxəli tədbirlərin görülməsi, institusional dəyişikliklər edilməli, turizm müəssisələrinin xidmət strukturları daha da müasirləşdirilməli, keyfiyyətli turizm arxitekturası qurulmalıdır.

Hazırda bölgədə qeyri-neft sektorunun ən gəlirli sahəsi kimi turizm və xidmət sənayesində rəqabət dərinləşir. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində zəngin turizm landşaftının olması isə regional rəqabətdə üstünlüyü ələ keçirməyə əlavə imkan verir. Bu baxımdan yeni şəraitdən düzgün istifadə edilməlidir, qətiyyən gecikmək olmaz.

Bu problemlər sözsüz ki, hökuməti də düşündürür. İyulun 10-də Baş nazir Əli Əsədovun rəhbərliyi ilə İqtisadi Şuranın keçirilən növbəti iclasında turizm sənayesindəki vəziyyət və "Azərbaycan Respublikasında turizmin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın layihəsi barədə geniş müzakirələrin aparılması da bunu təsdiqləyir. İclasda turizmin inkişafına mane olan amillərə nəzər salınıb və yeni təşviqedici addımların atılması üçün tapşırıqlar verilib. 2026-2030-cu illəri əhatə edəcək Proqramda müəyyən edilmiş hədəflərə nail olmaq üçün konkret icra mexanizmləri və fəaliyyət planı formalaşdırılıb. Proqram çərçivəsində hava məkanından istifadənin liberallaşdırılması, beynəlxalq hava əlaqələrinin genişləndirilməsinin təşviqi və gəlmə turizm məqsədilə vizasız rejimin tətbiqi əsas prioritetlər sırasında yer alır. Eyni zamanda, regionlarda yerləşən əsas turizm məntəqələrinin nəqliyyat əlçatanlığının artırılması da proqramın mühüm istiqamətlərindən biridir.

Turist axınının stimullaşdırılması məqsədilə Proqram çərçivəsində Azərbaycanın qastronomiya, sağlamlıq, qış və ekoturizm destinasiyası kimi tanıdılması planlaşdırılır. Yeni çimərliklərin yaradılması, Turizm və Rekreasiya Zonalarında investisiyaların artırılması və mikro, kiçik sahibkarlıq subyektlərinin dəstəklənməsi də nəzərdə tutulur. Həmçinin sənaye subyektlərinin təsnifat və uçot sisteminin təkmilləşdirilməsi, turizm sahəsində təhlükəsizlik və keyfiyyət standartlarının gücləndirilməsi, regionlarda əsas turizm məntəqələrinin əlçatanlığının artırılması, hədəf turizm bazarlarında təbliğat və sosial media kampaniyalarının genişləndirilməsi proqramın digər vacib istiqamətlərindəndir. Dövlət Proqramı turizm sahəsinə aid təhsil proqramlarının və müvafiq infrastrukturun inkişafını, Turizm İnformasiya Sisteminin yaradılmasını və tədqiqat layihələrinin dəstəklənməsini də əhatə edir.

***E.CƏFƏRLİ***

# Dünya Süni İntellekt Əməkdaşlıq Təşkilatı təsis edilib

Çinin Şanxay şəhərində Dünya Süni İntellekt Konfransı (WAIC) və Süni İntellektin Qlobal İdarəçiliyinə dair Yüksək Səviyyəli Görüş başlayıb.




AZƏRTAC xəbər verir ki, bir neçə ölkədən dövlət və hökumət başçılarının iştirak etdikləri tədbirin açılışında çıxış edən Çin Xalq Respublikasının Sədri Si Cinpin Dünya Süni İntellekt Əməkdaşlığı Təşkilatının yaradıldığını elan edib.

Təşkilatın yaradılması barədə sazişi 29 ölkənin nümayəndəsi imzalayıb. Sazişə əsasən, Dünya Süni İntellekt Əməkdaşlıq Təşkilatı BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə əməl edən və geniş məsləhətləşmələr, birgə töhfələr və ortaq faydalar vizyonunu dəstəkləyən müstəqil hökumətlərarası beynəlxalq təşkilatdır.

Qurum süni intellektdə (AI) beynəlxalq əməkdaşlığı və qlobal idarəetməni təşviq etməyi, süni intellektin faydalı, təhlükəsiz və ədalətli şəkildə inkişaf etməsini təmin etməyi və bəşəriyyətin rifahına töhfə verməyi hədəfləyir. Onun qərargahı Çinin Şanxay şəhərində yerləşəcək.

İmzalanma mərasimində BMT-nin Baş katibi Antonio Quterreş və digər ölkələrin və beynəlxalq təşkilatların nümayəndələri də iştirak ediblər.

Süni intellekt sahəsində yarış artıq təkcə daha ağıllı çatbot hazırlamaq uğrunda getmir. Əsas mübarizə bundan sonra bu texnologiyanın gələcəyini kimin formalaşdıracağı və qlobal qaydaları kimin müəyyənləşdirəcəyi uğrunda aparılacaq.

Bu baxımdan son günlərin ən diqqətçəkən hadisələrindən biri Şanxaydan verilən mesaj oldu. İlk baxışda bu, adi texnologiya konfransı təsiri bağışlasa da, səsləndirilən təşəbbüslər süni intellekt sahəsində qüvvələr balansını dəyişə biləcək iddialardan xəbər verir.

İyulun 17-də Şanxayda işə başlayan Dünya Süni İntellekt Konfransında (WAIC) Çin Xalq Respublikasının Sədri Si Cinpin süni intellektin qlobal idarəçiliyinə dair rəsmi Pekinin baxışını açıqlayıb. O bildirib ki, süni intellekt heç bir ölkənin inhisarında olmamalı, onun inkişafı beynəlxalq əməkdaşlıq, açıq mənbəli texnologiyalar və hamı üçün bərabər imkanlar prinsiplərinə əsaslanmalıdır.

Konfrans ərəfəsində yaradılmış Ümumdünya Süni İntellekt Əməkdaşlıq Təşkilatının məqsədi süni intellekt sahəsində beynəlxalq əməkdaşlığı genişləndirmək, qlobal idarəetmə mexanizmlərinin formalaşdırılmasına töhfə vermək və inkişaf etməkdə olan ölkələrin bu texnologiyalara çıxışını asanlaşdırmaqdır.

Si Cinpin çıxışında Çin tərəfindən növbəti beş il ərzində inkişaf etməkdə olan ölkələr üçün minlərlə AI təlim proqramının təşkil ediləcəyini, müxtəlif regionlarla əməkdaşlıq mərkəzlərinin yaradılacağını və açıq mənbəli süni intellekt modellərinin inkişafının dəstəklənəcəyini də açıqlayıb.

Bəs bu, adi insanlar üçün nə deməkdir?

Sadə dillə desək, Çin istəyir ki, gələcəkdə süni intellektdən istifadə edən ölkələr, şirkətlər və proqramçılar yalnız ABŞ texnologiyalarına deyil, Çin tərəfindən yaradılan platforma, modellər və standartlara da üstünlük versinlər.

Başqa sözlə, necə ki, bu gün internetdə Apple və Android ekosistemləri arasında rəqabət mövcuddur, yaxın illərdə süni intellekt sahəsində də ABŞ və Çin mərkəzli iki böyük texnologiya ekosisteminin formalaşması mümkündür.

Çin bununla yanaşı, yüksək məhsuldarlıqlı AI çipləri, məlumat mərkəzləri və açıq mənbəli modellər hesabına xarici texnologiyalardan asılılığı azaltmağa çalışır. Şanxay konfransında Huawei ABŞ texnologiyalarından asılı olmayan yeni Atlas 950 SuperPoD süni intellekt hesablama sistemini də nümayiş etdirib.

Bir çox analitik hesab edir ki, Şanxayda verilən mesaj təkcə yeni texnologiyaların təqdimatı deyil. Bu, süni intellekt sahəsində qlobal liderlik, beynəlxalq standartlar və rəqəmsal iqtisadiyyat uğrunda uzunmüddətli geosiyasi rəqabətin yeni mərhələsinin başladığını göstərən ən mühüm siqnallardan biridir.

İndi əsas sual budur: gələcəyin süni intellekt qaydalarını kim müəyyənləşdirəcək?

# 2031-ci illədək...

Fransa 2031-ci ilə qədər dövlət maliyyəsini sabitləşdirmək üçün təxminən 200 milyard avro həcmində büdcə tədbirləri həyata keçirməlidir. Bu qənaət Fransanın Strategiya və Plan üzrə Ali Komissarlığının (HCSP) dərc etdiyi analitik hesabatda yer alıb.

AZƏRTAC xəbər verir ki, sənədə görə, müdafiə və iqlim keçidi ilə bağlı öhdəliklər nəzərə alınmasa belə, dövlət maliyyəsində ciddi nəzarətsiz artımın qarşısını almaq üçün 2025-ci ilin sabit qiymətləri ilə 140 milyard avroluq fiskal düzəliş tələb olunur. Bu məbləğ ümumi daxili məhsulun (ÜDM) təxminən 4,4 faizinə bərabərdir.

HCSP hesab edir ki, 2031-ci ilə qədər dövlət büdcəsində borc faizləri və iqtisadi dövrün təsirləri nəzərə alınmadan ÜDM-in 1,8 faizi həcmində ilkin struktur profisitə nail olunmalıdır. Lakin müdafiə və iqlim siyasəti üzrə planlaşdırılan əlavə xərclər də nəzərə alındıqda, tələb olunan ümumi büdcə səyi ÜDM-in 6,4 faizinə, yəni təxminən 200 milyard avroya yüksəlir.

Hesabatda qeyd olunur ki, təhsil, elmi tədqiqatlar və sosial həmrəylik sahələrinə əlavə investisiyalar ayrılacağı təqdirdə bu məbləğ daha da arta bilər.

HCSP-nin "Fransa 2035, Fransa 2050" adlı uzunmüddətli proqnozlarına əsasən, mövcud siyasət dəyişməz qalarsa, dövlət borcu 2035-ci ildə ÜDM-in təxminən 140 faizinə, 2050-ci ildə isə 186 faizinə yüksələ bilər. Ali komissar Kleman Bon bu göstəriciləri son dərəcə yüksək və ciddi narahatlıq doğuran rəqəmlər kimi qiymətləndirib.



Proqnozlarda əhalinin yaşlanması, sosial ödənişlərin artması, hərbi öhdəliklər, ekoloji keçid, iqlim dəyişikliklərinin təsirləri və dövlət borcuna xidmət xərclərinin yüksəlməsi nəzərə alınıb. Hesabata görə, faiz ödənişlərinin artması gələcəkdə dövlət büdcəsinin imkanlarını daha da məhdudlaşdıracaq.

HCSP hesab edir ki, dövlət maliyyəsini bərpa etmək üçün təkcə bir tədbir kifayət etməyəcək. Qurum üç əsas istiqamətin paralel şəkildə həyata keçirilməsini tövsiyə edir: dövlət xərclərinin nəzarət altında saxlanılması, məcburi vergi və ödənişlərin artırılması, məşğulluğu, əmək məhsuldarlığını və iqtisadi fəallığı artıracaq struktur islahatların həyata keçirilməsi.

Bununla yanaşı, hesabat müəllifləri xəbərdarlıq edirlər ki, həddindən artıq sürətli və genişmiqyaslı büdcə konsolidasiyası iqtisadi artıma və sosial sabitliyə mənfi təsir göstərə bilər.

Qiymətləndirmələrə görə, əgər maliyyə sabitliyi yalnız xərclərin azaldılması və ya yalnız vergi gəlirlərinin artırılması hesabına təmin edilməyə çalışılarsa, 2031-ci ilə qədər ÜDM-də 2-2,5 faiz azalma baş verə bilər.

HCSP, həmçinin dövlət maliyyəsinin çoxillik planlaşdırılmasının gücləndirilməsinə çağırır. Qurum hesab edir ki, dövlət maliyyəsi üzrə proqram qanunları, Fransanın Avropa İttifaqı qarşısında götürdüyü öhdəliklər və müdafiə, elmi tədqiqat kimi sahələr üzrə proqramlar arasında koordinasiya kifayət qədər effektiv deyil. Bu səbəbdən parlamentin büdcə siyasətində rolunun artırılması və uzunmüddətli planlaşdırmanın təkmilləşdirilməsi tövsiyə olunur.

Hesabat hökumətin 2027-ci il dövlət büdcəsi üzərində işləri sürətləndirdiyi dövrdə açıqlanıb.

# Pentaqon Kubaya hərbi müdaxiləni nəzərdən keçirir?

**ABŞ Venesuelada öz maraqlarını təmin etdikdən sonra onun növbəti hədəfinin Kuba olacağı bildirilirdi. Lakin Vaşinqtonun İranla müharibəyə başlaması Kubaya hərbi müdaxiləni arxa plana keçirib. Bununla belə, ABŞ Kubaya qarşı təzyiqlərini davam etdirməkdədir.**

## Vaşinqtonun təzyiqləri daha da güclənib

ABŞ Dövlət Departamentinin Qərb Yarımkürəsi İşləri Bürosunun rəhbəri Maykl Kozak Senatın Xarici Əlaqələr Komitəsinin dinləmələrində çıxışı zamanı deyib ki, rəsmi Vaşinqtonun Kubaya qarşı təzyiqi əvvəlki dövrlərlə müqayisədə daha da güclənib. Onun sözlərinə görə, Vaşinqton Kuba hökumətini "fundamental islahatlar həyata keçirməyə" təşviq edir. Bu addımlar ABŞ-ın mövqeyinə əsasən, ölkənin "yenidən həyat qabiliyyətinə çatması" üçün zəruridir. Dövlət Departamentinin rəsmisi Kuba ilə bağlı beynəlxalq məsləhətləşmələrə də toxunub. O qeyd edib ki, ABŞ digər ölkələrlə danışıqlarda müəyyən irəliləyiş əldə edib və tərəfdaşları Kubaya, hətta məhdud həcmdə yardım göstərməməyə çağırır.

Xatırladaq ki, ötən ay Pentaqonun rəhbəri Pit Heqset jurnalistlərə verdiyi açıqlamada Ağ Evin Kuba Prezidenti Migel Dias-Kanelin ölkədən qaçırılması (oğurlanması) ssenarisini ciddi şəkildə masaya qoyduğunu etiraf etmişdi. ABŞ-ın Karib hövzəsində artan hərbi fəallığı və kəşfiyyat uçuşları ilə bağlı sualları cavablandıran Heqset, rəsmi Vaşinqtonun Kuba rejimini dəyişməkdə qərarlı olduğunu gizlətməyib: "Hazırda bizim əlimizdə hər növ hərbi və strateji planlar mövcuddur. Kuba prezidentinin ələ keçirilməsi də daxil olmaqla, bütün mümkün və radikal variantlar hazırda masanın üzərindədir".

Pentaqon rəhbəri onu da xüsusi vurğulayıb ki, bu məsələdə yekun və qəti qərarı şəxsən Prezident Donald Tramp özü qəbul edəcək. Nəzərə alaq ki, bir müddət əvvəl Prezident Donald Tramp Mayamidə keçirilən iqtisadi sammitdə regional gərginliyə toxunaraq "Yeri gəlmişkən, növbəti hədəf Kubadır" bəyanatını səsləndirmişdi. Ağ Evin bu açıq hədələrindən və ABŞ Hərbi Dəniz Qüvvələrinin "Nimitz" aviadaşıyıcı qrupunun Karib dənizinə daxil olmasından sonra Havana həyəcan təbili çalıb. Kuba hakimiyyəti ölkədə mülki müdafiə tədbirlərini maksimum dərəcədə gücləndirərək, ABŞ-ın mümkün hərbi müdaxiləsinə və qaçırma əməliyyatlarına qarşı dinc əhaliyə kütləvi şəkildə odlu silah paylamağa başlamışdı. Beynəlxalq ekspertlər Maduronun qaçırılmasından sonra Vaşinqtonun bu addımını regionu tamamilə alova bürüyəcək yeni bir müharibə anonsu kimi qiymətləndiriblər.

Bugünlərdə isə ABŞ dövlət katibi Marko Rubio bildirib ki, ABŞ administrasiyası milli təhlükəsizliyinə Kuba tərəfindən düşündüyü təhdidlərin aradan qaldırılması üçün bütün mövcud vasitələrdən istifadə etməyə hazırdır. Onun sözlərinə görə, Kubada siyasi və iqtisadi islahatların həyata keçirilməsinə ehtiyac var, ölkə iqtisadiyyatı "sərbəst eniş vəziyyətindədir". "ABŞ milli təhlükəsizliyə yönəlmiş təhdidləri aradan qaldırmaq, Kubanın daha yaxşı gələcəyi naminə iqtisadi və siyasi islahatları təşviq etmək üçün əlində olan bütün vasitələrdən istifadə etməyə davam edəcək. Kuba rəhbərliyi gec olmadan real islahatlar, sülh və rifah yolunu seçməlidir", - deyə dövlət katibi vurğulayıb.



## İranla müharibə Kubaya qarşı hərbi variantı hələlik istisna edir

"CBS News" telekanalı isə bir neçə mənbəyə istinadən məlumat yayıb ki, Pentaqon son həftələrdə Kubaya qarşı mümkün hərbi əməliyyat variantlarını, o cümlədən ABŞ ordusunun 101-ci hava-desant diviziyasının tərkibində olan minlərlə hərbçinin iştirakı ilə desant əməliyyatını nəzərdən keçirir. Mənbələrin məlumatına görə, söhbət qəbul edilmiş qərardan deyil, ilkin hərbi planlaşdırmadan gedir. Onlar vurğulayıblar ki, ABŞ Prezidenti Donald Tramp və Pentaqon rəhbərliyi hələlik hər hansı əməliyyatın keçirilməsinə icazə verməyib.

Telekanal qeyd edir ki, ötən ayın sonunda ABŞ hərbçiləri qapalı brifinq keçiriblər. Brifinq zamanı ayrı-ayrı missiyaların həyata keçirilməsi ilə bağlı mümkün ssenarilər, tələb olunan qüvvələrin sayı, logistika və potensial risklər müzakirə olunub. Bununla yanaşı, "CBS News"-un həmsöhbətləri hesab edirlər ki, yaxın vaxtlarda ABŞ-ın hərbi diqqətinin Kubaya yönəlməsi ehtimalı azdır. Buna səbəb ABŞ qüvvələrinin və resurslarının əhəmiyyətli hissəsinin artıq İrana qarşı keçirilən əməliyyata cəlb olunmasıdır.

ABŞ Prezidentinin mövqeyinə gəlincə, Donald Tramp düşünür ki, Kuba hakimiyyəti Vaşinqtonla münasibətlərin yaxşılaşdırılması istiqamətində irəliləyir: "Uzun illər sonra Kuba Amerikanın orbitinə yaxınlaşır". Halbuki, Donald Tramp ötən ay Kubada Venesuela ssenarisi üzrə ada dövlətinin rəhbərliyinin dəyişdirilməsi əməliyyatının həyata keçirilməsi ehtimalını istisna etməmişdi. Bununla yanaşı, Ağ Ev rəhbəri diqqəti ona çəkib ki, Kuba və Venesuela Amerika ərazisinə İrana nisbətən xeyli yaxın yerləşir: "Daha bir məqam var. Bu yerlər yaxınlıqdadır. İrana nəzər salsaq, bu, çox uzun uçuşdur. Venesuela isə nisbətən yaxındır, Kuba isə, sözün əsl mənasında, iki addımlıqdadır".

## Sanksiyalar artırılır

Rəsmi Vaşinqton Havanaya təzyiqləri artırmaq üçün sanksiyalardan da geniş istifadə edir. Belə ki, ABŞ Dövlət Departamenti Prezident Donald Tramp administrasiyasının Kubanın hakimiyyətinə təzyiqi gücləndirməyə yönəlmiş siyasəti çərçivəsində ada dövlətində fəaliyyət göstərən daha 10 təşkilata qarşı sanksiyaların tətbiq edildiyini elan edib. Bəyan olunub ki, ABŞ Kuba kommunist rejimindən qaynaqlanan milli təhlükəsizliyə təhdidləri aradan qaldırmaq, eləcə də ölkəni daha yaxşı gələcəklə təmin edəcək iqtisadi və siyasi islahatlara dəstək olmaq üçün bütün yollardan istifadə etməyə davam edəcək: "Hər 10 təşkilat Kubadakı repressiyalara, həmçinin ABŞ-ın milli təhlükəsizliyinə və xarici siyasətinə təhdid yaradan fəaliyyətə aidiyyəti olan şəxslərə və strukturlara qarşı məhdudlaşdırıcı tədbirlərin tətbiq edilməsini nəzərdə tutan ABŞ prezidentinin fərmanına əsasən sanksiyalar siyahısına daxil edilib".

Rəsmi Havana isə hesab edir ki, ABŞ-ın Kubaya qarşı sanksiyaları Donald Tramp administrasiyası tərəfindən bu ölkəyə mümkün hərbi müdaxiləyə haqq qazandırmaq üçün bəhanə kimi istifadə olunur. Kubanın ABŞ-dakı səfiri Lianis Torres Rivera "Associated Press"ə müsahibəsində deyib ki, Vaşinqton Havananın təhlükə doğurması təəssüratını yaratmağa çalışır, lakin Kuba ABŞ üçün heç bir təhlükə yaratmır və qarşıdurmaya can atmır: "Liderlərimizə qarşı sanksiyaları Amerika xalqının bizim təhlükə yaratdığımızı düşünməsinə səbəb olmaq üçün bəhanə kimi görürük. Biz ABŞ üçün təhlükə deyilik və qarşıdurma istəmirik". L.T.Rivera Kubaya qarşı mövcud məhdudiyyətləri "bombasız müharibə" adlandıraraq, bunların enerji təchizatına məhdudiyyətlər də daxil olmaqla təzyiqin bir hissəsi olduğunu iddia edib. O, həmçinin vurğulayıb ki, Kubanın siyasi sistemini güc və ya məcburiyyət yolu ilə dəyişdirmək üçün edilən hər hansı cəhd müqavimətlə qarşılanacaq.

*N.BAYRAMLI*

# Altı ölümün öldürdüyü tək adam

## Edqar Allan Ponun yaradıcılığı haqqında

əvvəli ötən saylarımızda

Bundan sonra ev yiyəsinin həmişəki dincliyi özünə qayıdır, əcaib varlığın görkəmiylə bağlı qohumunu sorğu-suala tutur. İzahat onu tam razı salanda ağır yük altından çıxmış kimi dərindən nəfəs alır, soyuqqanlı bir ədayla mücərrəd fəlsəfənin bəzi incəliklərini xırdaladığı yarımçıq söhbətinə qayıdır. Qohum bir fikri xüsusi vurğulayır ki, insanın bütün yanılmalarının təməlində məsafəni bəlləməkdə yol verdiyi sadə bir yanlışlıq ucbatından ağılın hansısa predmeti ya kiçiltmək, ya da şişirtmək meyli durur.

Sonra rəfdən təbiət tarixinə dair ibtidai kurs kitabını götürüb həşəratların təsvir olunduğu bölməni açır, Sfinks ləqəbi verilmiş kəpənəyin əlamətlərini oxuyur: "Metal kimi parıldayan rəngbərəng pulcuqlarla örtülü dörd pərdəli qanad; çənələrin davamı kimi başa bərkidilmiş xortumcuq şəkilli ağız; ağızın qıraqlarında - yararsız qalmış çənələrin qalıqları, bir də yumşaq duyğu telləri. Cod tükcüklərlə bir-birinə bənd olunmuş altüst qanadlar; uzunsov prizmatik toppuz şəklində bığcıqlar; sivri qarıncıq. Sfinks adlanan Kəllə Kəpənəyin qəmli səsi, bir də qalxancığı üzərindəki ölüm rəmzi bəzən avam adamlarda xof yaradır".

Qohum kitabı bağlayıb, qəhrəmanımızın bədheybəti gördüyü andakı oturuşunu yamsılamaq üçün irəli əyilir: "Budur, indi sənin əjdahan üzüyuxarı dırmanır. Söz yox, çox əcaib görkəmi var. Ancaq o nə sən düşündüyün böyüklükdə, nə də xəyal elədiyin uzaqlıqdadır. Pəncərənin çərçivəsindən sallanan hörümçək torunun üstüylə sürünür. Gövdəsinin uzunluğu düymün on altıda birindən artıq deyil. Elə mənim gözümlə onun arası da bu qədər olar".

Hekayə məntiqi idrakla mövhumi inam, rasional düşüncəylə batil inanc, ayıq düşüncəylə kor etiqad arasında təzada illüstrasiyadır. Ölümcül epidemiyanın əlindən qaçan, dalbadal bəd xəbərlər alan, aramsız həyəcan içində yuxularını qarışdıran qəhrəman sağlam düşünmək qabiliyyətini itirib xurafata qapılır, əlamətlərə inanmağa başlayır. İdrakının qarşısına maya örtüyü çəkildiyindən adam nisbi dünyanın optik illüziyasına asanlıqla aldanıb cəhalətə yuvarlanır, xırdaca bir həşəratı nəhəng, qorxunc bədheybətə, mifik ölüm elçisi Sfinksə bənzədir. Tək insanın yox, bütün yaranmışların cismani gözü maddi-fiziki aləmə şərti-subyektiv prizmadan baxır, dünyanı relyativizm prinsipi əsasında qavrayır: birinə böyük görünən başqasına kiçik, birinə uzun görünən başqasına gödək görünür. Yerin kürə olduğunu da müdriklər cismin çaş gözləriylə yox, idrakın daşı dələn sərrast gözüylə görüblər.

Hər cür qorxu, həyəcan insanı mövhumata sürükləyir, mövhumat ağlın gözünə pərdə çəkir, dərrakəni kəsərdən salır, analitik şüuru, sağlam məntiqi şeytanın labirintində azdırır. Ruhun gözünü - üçüncü gözü açıb altıncı hiss orqanını işə salmaq üçün Budda kimi mənfi-müsbət emosiyaları sıfırlamaq, beş duyğu orqanının gətirdiyi məlumatları qapıdan qaytarıb sansara zəncirini boyundan açmaq, nirvana ovqatına düşüb saf şüurun reduksiyasına nail olmaq lazımdır. Mövhumatdan, xurafatdan, total xofdan qurtulmağın, ehtirasların doğurduğu əzablara son qoymağın, dünyanı əyri görən çəp gözü düzəltməyin yolu budur. Qəhrəmanın labüd ölüm qarşısında təmkinini, məntiqini itirməyən dostu məhz belə bir başlanğıcı təmsil eləyir, qohumunun mənəvi istinadgahı, ruha söykənən idrakı funksiyasını yerinə yetirir.

***

Yazıçının "Aşerlər evinin çöküşü" (1839) adlı daha bir qotik novellası da mahiyyətcə məhşər elegiyası, insanlığa qiyamət ağısıdır. Gənclik dostu Roderikdən həyəcanlı məktub alan təhkiyəçi təcili Aşerlərin malikanəsinə yola düşür. Bu möhtəşəm qədim ev artıq kədər yuvasına dönüb, burada keçən həyatın tənəzzül əlamətləri elə ilk baxışdan sezilir: ağaclar, kollar quruyub, mamır basmış, kif atmış divarlar çat verib, pəncərələr batıq göz çuxurlarına bənzəyir. Bütün bunları bulanıq qara suyunda əks elətdirən göldən qurğuşun rəngli buğ qalxır. Divarlarından ağır pərdələr asılmış otaqların soyuq, qəmgin görkəmi, hörümçək toru suvanmış günbəzin dəbdəbəli kədəri burada zamanın sona çatmaqda olduğunu göstərir.

Roderik Aşer dostunu hərarətlə qarşılamağa çalışsa da, onun əvvəlki adam olmadığı üz-gözündən bəllidir, təhkiyəçi uşaqlıq dostunu güclə tanıyır. İnteryerin qara-qırmızı rəngləri Aşerin mum kimi solğun, ölgün sifətinə uyğun fon verir: "Dostum xəstəliyinin əlamətlərini mənə izah eləməyə girişmişdi, deyirdi ki, bu, Aşerlər ailəsinin lənəti, bütün nəsildə özünü göstərən irsi xəstəlikdir. Deyirdi artıq sağalmaq ümidini itirib, tez də dediyinə əlavə eləyirdi ki, hamısı əsəbdəndir, şübhəsiz, tezliklə ötüb keçəcək. O yalnız şit yemək yeyə bilir, hər parçadan paltar geyinə bilmirdi. Gül ətri ona ağır təsir göstərirdi, hətta zəif işıq belə ona işgəncə verirdi. Yalnız simli alətlərin səsi onda ikrah doğurmurdu".

Aşer gələcəkdən qorxur, həm də baş verə biləcək hadisələrdən yox, onların nəticələrindən. Kiçik, əhəmiyyətsiz bir hadisənin daim həyəcan içində qovrulan ruhunda oyada biləcəyi təlatüm haqqında düşünmək yetər ki, onu titrətmə tutsun. Roderiki təhlükənin özü yox, onun doğuracağı dəhşət hissi qorxudur, bilir ki, qorxu adlı kabusla mübarizədə gec-tez həm ağlını, həm də həyatını itirəcək. Aşerə elə gəlir evdə sirli qara qüvvə məskən salıb, evin daşları, taxtaları neçə ildir onu əsarətdə saxlayır, boz divarlar, qüllələr, bulanıq göl onun həyatını idarə eləyir. Bir sözlə, adam dərin nevroza, manyakal depressiyaya düçar olub, işıq kimi, ətir kimi, dadlıduzlu yemək kimi insana sağlamlıq, gümrahlıq verən hər cür həyat nemətl ona pis təsir göstərir. Üstəlik, yeganə doğması olan əziz bacısı ağır xəstəliyə tutulub, son günlərini yaşayır. Qız hər şeyə biganədir, günü-gündən əriyir, bəzən də bütün orqanları keyiyir, nəfəsi dayanır. Bununla belə xəstəliyə müqavimət göstərir, yatağa düşmək istəmir. Amma bələdçimizin Aşerlərin malikanəsinə gəldiyi günün axşamı ledi Medileyn xəstəliyin təzyiqinə tab gətirməyib təslim olur.

Roderik Aşer bacısının öldüyünü dostuna xəbər verəndə meyidi iki həftə evin zirzəmisində saxlamaq niyyətində olduğunu söyləyir. Onlar köməkləşib bu işi həyata keçirəndə təhkiyəçi qəribə müşahidələr aparır: "Zirzəmi yerin lap dərin qatlarında, məhz mənim yatdığım otağın altında yerləşirdi. Bu havasız, rütubətli, darısqal, qaranlıq zirzəmidə gün işığının sıza biləcəyi bir nəfəslik belə yox idi. Mən, demək olar, heç nə görmürdüm. Çox güman, feodalizm dövründə bu yerdən zindan kimi istifadə olunmuşdu, daha qədimdə isə burada barıt, ya başqa tezalışan maddələr saxlanmışdı. Döşəməni örtən, bir-birinə səliqəylə birləşdirilmiş mis lövhələr də buna dəlalət eləyirdi. Açılanda kəskin qulaqbatırıcı cırıltı salan nəhəng dəmir qapı da bu yolla alovdan sığortalanmışdı. Biz matəm yükümüzü zirzəmidəki taxta altlığın üstünə qoyduq. Tabutun hələ bərkidilməmiş qapağını qaldırıb mərhumun üzünə baxdıq. Bacıyla qardaş arasındakı heyrətamiz oxşarlıq birinci dəfəydi diqqətimi çəkirdi. Nə düşündüyümü anlayan Aşer burnunun altında nəsə mızıldandı. Təkcə bunu anladım ki, onlar əkiz imişlər, qəlbləri də ömür boyu ağlaşığmaz dərəcədə həmahəng vurub..."

**davamı növbəti sayımızda**



*F.Uğurlu*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Şənbə üçün nəzm







*Qoşqar Qaraçaylı*

Sənə baxan gözlərim,
Yoluna baxır indi...
Köksümdə xatirələr,
Elə darıxır indi...

Əllərindən ayrılan,
Əllərim yetim qalıb..
Nəfəsin toxunmayan,
Tellərim yetim qalıb...

Zəng etmirsən, telefon
Əlimdə can üstədi..
Sənsiz duyğularım da,
Hisslərim də xəstədi...

Ən xoş keçən gün belə,
Sənsiz adi gün olub...
Sən gedəndən xəyalım,
Arxanca sürgün olub...

Tapa bilmirəm indi,
Özümü itirmişəm...
Sənə söyləmədiyim,
Sözümü itirmişəm...

Sənlə keçən günlərim,
Şirin yuxuya dönüb...
Gedişin ürəyimdə,
Dərdə, ağrıya dönüb...

Bir qurtum da su keçmir,
Boğazımdan biləsən...
Sən sinəmi göynədən,
Görən hansı naləsən...

Sənə bir yol əlvida,
Deməyə dilim gəlmir...

Nə sən gəlirsən, nə də,
Bir dəli ölüm gəlmir...

Sən yaralı pərvanə,
Mən indi tənha şamam...
Eh..,ayrılıq ömrümü,
Yedi qurtardı tamam...

Niyə əhdimizə de,
Axı doğru olmadıq..,
Birimiz od olsaq da,
Birimiz su olmadıq...

Sənə baxan gözlərim,
Yoluna baxır indi..,
Köksümdə xatirələr,
Elə darıxır indi...

***

Necə keçdi bilmirəm,
Ömür, qırxa çatmışam...
O suları quruyan,
Köhnə arxa çatmışam...

Keçdiyim hər cığırdan,
Bir xatirə dərmişəm...
Üşüyər deyə üstə,
Ürəyimi sərmişəm...

Baxıram hərəsində,
Bir az məndən qalıbdı...
Sevə-sevə çəkdiyim,
Dərddən, qəmdən qalıbdı...

Ocaq bilirdim, ömür,
Bir ağac misalıymış...
Bir az da öz-özüylə,
Bir savaş misalıymış...

Nə ağlı, nə ürəyi,
Nə ruhu saymayır o...
Sönən qaynar gəncliyin,
Külüylə oynayır o...

Canı sağ olmuş elə,
Eh, nəyə köklənibdi...
Adını bilmədiyim,
Nəğməyə köklənibdi...

Günlər aylara döndü,
Aylar da ki, illərə...
Dən də düşdü xəbərsiz..,
Eh, bu zülmət tellərə...

Güvəndiyim dağlara,
Yağan qar da əridi...
İndi sanki ürəyim,
Ayrılıq şəhəridi...

Yolum üstə bitən o,
Güllər tər qalmayıbdı...
Sevgi dolu günlərdən,
Bir əsər qalmayıbdı...

İndi daha yaşamaq,
Yanmaq deyil, sönməkdi...
Bu ölümdən dönməyib,
Sevgidənmi dönməkdi..?
Suallarla üz-üzə,

Cavablarla baş-başa...
Söyləyirəm özümə,
Şair, birtəhər yaşa...

Nə yaxşı ki yenə də...,
Bəxtin üzü bəridi...
Arzularım ölsə də,
Ümidlərim diridi...

***

Adını nə qoyum sənin,
Təzə dərdim, təzə dərdim...
Gəlməyəsən heç bir zaman,
Gözə dərdim, gözə dərdim...

Sualsanmı, cavabsanmı,
Günahsanmı, savabsanmı..
Gözlədiyim əzabsanmı,
Bat sinəmə nizə dərdim...

Ruhuma çök, fikrimə bax,
Damla-damla könlümə ax..
Oxu məni varaq-varaq..
Çək yaramı közə, dərdim...

Sənə qəza, qədər deyim,
Xeyir yoxsa, de, şər deyim..
Səni necə gətirməyim,
Sözə dərdim, sözə dərdim...

Əzizləyim beşikdəmi,
Evdəmi ya eşikdəmi..
Söylə qalım keşikdəmi,
Sənə əsə-əsə, dərdim...

Utanma, su-çörək verim,
Arzu verim, dilək verim..
Bəlkə ürək-dirək verim,
Narahatsan.. nəsə, dərdim...

Baxma ömür-gün başqadı,
Çəkdiyim zülüm başqadı...
Yaşamağın budur adı..
Anla məni kəsə, dərdim...

Qaraçaylı, bu mən, bu sən,
İnanarsan, söylə, desəm..?
Yazdığım ən son nəğməsən,
Gözəl dərdim, gözəl dərdim...

***

Həyat adlı bu qəfəsdə,
Açılmayır hər dan, ömür...
Aldığımız bu nəfəs də,
Yalan imiş, yalan, ömür...

Bəhanəymiş hər doğru da,
Hər sual da, hər sorğu da..
Canımızdakı ağrı da...
Qalan imiş, qalan, ömür...

Sorma hansı aləmdi bu..
Borcdu yoxsa, sələmdi bu...
Qızıl deyil ki, qəmdi bu..,
Kimdir bizdən alan, ömür...

Doğru Allah, düz,-Allahdı,
Ocaq Allah, köz,- Allahdı..
Ən qiymətli söz,-Allahdı...
Allah, Allah... balam ömür...

# “Qəliz” dil

## Sənin mətnin, mənim mətnim keçilməz hədd ola bilər.



*Məqsəd Nur*

Sİ (Süni İntellekt) bunu yaxşı bilir. Əmək bazarında Sİ üçün idrakın keçilməz həddi məhz qəliz dil olacaq. İstər şifahi, istərsə də yazılı dil. Bəlkə də, bu dili götürüb dağlara qaçan primitiv insan Sİ-nin amansız təqiblərindən qurtulmağa çalışacaq. Tutaq ki, Sİ onu əsir götürdü və sirləri öyrənməyə çalışdı. Hansı sirləri və necə öyrənəcək? Axı hər dilin öz şifrə qatı var. Dərinə getdikcə qəlizləşən qatlar. Bax bunu necə çözəcək, əlahəzrət Sİ?

Neyro-linqvistika məhz bunu araşdırıb bir tərəfə çıxarmağa çalışır. İllərdir, elmin ən irəlidə gedən sahəsi kimi sürətlə, maraqla, yeni mesajlarla inkişaf edir - gah tibbə yönəlir, gah biotexnologiyalara. Əslində isə axtarılan ləl-cəvahiratdır - dildir ki, dil. Qəliz mətnlərin İT texnologiyalara transformasiyası, Sİ-yə inteqrasiyasıdır.

Əsas istiqamətlər (məsələn, bu ilin yaz aylarında Avstraliyada geniş müzakirə edilən məsələlər) dil və nitq proseslərinin beyində necə kodlaşdırıldığını açmaq, Böyük Dil Modellərinin (LLM) işləmə prinsiplərini Sİ-nin təməl sütununa çevirərək multimodal düşüncə sistemləri yaratmaq, maşınla insanın qarşılıqlı əlaqəsini qurmaq, eyni zamanda qlobal dil müxtəlifliyini dəstəkləyən, daha dərindən düşünən, ünsiyyət quran və başa düşən sistemlər qurmaq .

Görəsən, yuxarıdakı tapşırıqların öhdəsindən gələ bilməsələr, nə edəcəklər? Bəlkə, yol sadədir: bütün dilləri SADƏLƏŞDİRMƏK lazım olacaq? Primitiv düşüncə tərzi yaradılacaq? Ki, buna doğru gedirik...

Demirəm ki, Sİ-nin tələsindən qaçmaq üçün mütləq qəliz yazın. Onsuz da bizim əvəzimizə məzmun yaradıcı proqramlar mövcuddur. Bu proqramlar indiyədək mövcud olan təsəvvürlərimizi və linqvistik nailiyyətlərimizi səliqəli şəkildə ipə düzüb özümüzə satır. Nəşriyyatlar üçün redaktə, korrektə proqramları hazırlayır. Bəs görəsən, “Dədə Qorqud” dastanının əski versiyasından və ya Mövlud Süleymanlının romanlarından yaradılan süni məzmun necə olardı?

Belə görünür ki, “Mədəniyyət -2040” konsepsiyası “qəliz” mətnlərimizi, şifrəli düşüncə tərzimizi, “neyrolinqvistik tənliklərimizi” mədəni irs kimi datalaşdırmalı, göz bəbəyi kimi qoruyub saxlamalıdır. Mətnlərin öyrənilməsi, “dil oyunları” ayrıca bir sahə kimi akademik səviyyədə araşdırılıb, amma sistemli şəkildə Sİ-yə necə inteqrasiya ediləcək?

Primitivləşdirmə ilə bitsə yaxşıdır, bir də gördün, Sİ bütün bu dillərin bazasında yeni bir dil yaratdı? Tarix və sivilizasiya üçün bu “hoqqabazlıq”lar xarakterikdir. Heç olmasa, əldə qəliz, dərin, öz səmasında qanad çalıb uçan, dəryalarının dibində üzən qəliz mətnlərimiz qalsın...

# Məntiqlə qazanılan qələbə



## Şahmat zəka və strategiya oyunudur...

Şahmat taxtası qarşısında dəqiq hesablanmış strategiya, ardıcıl düşüncə və davamlı zəhmət qalibiyyətə aparan yolu müəyyənləşdirir. Bu oyunun ən böyük üstünlüklərindən biri ondan ibarətdir ki, insanı yalnız qalib gəlməyə deyil, uduzmağı qəbul etmək və səhvləri analiz etməyi öyrədir. 64 xanalı taxta lövhə üzərində cansız fiqurlar arasında gedən səssiz-səmirsiz döyüş olan şahmat mübarizəsi insanda təhlil qabiliyyətini artırır, təxəyyülü gücləndirir, dözüm, inad, qətiyyət və dəmir iradə tərbiyə edir. Şahmatda siyasi kombinasiyalar belə mövcuddur.

Əslində, şahmat həyatın özünə çox bənzəyir. Burada da hər qərarın müəyyən nəticəsi olur, tələsik atılan addımlar sonradan ciddi itkilərə səbəb ola bilir, səbir və uzaqgörənlik isə insanı uğura aparan əsas amillərə çevrilir. Buna görə də şahmat oynayan insan yalnız fiqurları idarə etməyi deyil, eyni zamanda həyatda qarşılaşdığı çətinliklərə daha rasional yanaşmağı, hadisələri müxtəlif rakurslardan qiymətləndirməyi öyrənir.

Mütəxəssislər hesab edirlər ki, uşaqların erkən yaşlardan şahmatla məşğul olması onların məntiqi təfəkkürünün, diqqətinin, yaddaşının, analiz etmə bacarığının və qərarvermə vərdişlərinin formalaşmasına mühüm töhfə verir. Bu oyun məktəblilərdə səbir, məsuliyyət, intizam və planlı düşünmək kimi keyfiyyətlərin inkişafına da müsbət təsir göstərir. Məhz buna görə də dünyanın bir çox ölkəsində şahmat artıq yalnız idman növü deyil, həm də təhsil prosesinin vacib elementlərindən biri kimi qiymətləndirilir.

Müasir dövrdə rəqəmsal texnologiyaların sürətlə inkişaf etməsinə baxmayaraq şahmat öz aktuallığını itirməyib. İnternet platformalarının, onlayn turnirlərin və süni intellekt əsaslı təlim proqramlarının meydana çıxması nəticəsində milyonlarla insan dünyanın müxtəlif ölkələrindən eyni anda bir-biri ilə qarşılaşmaq, peşəkar oyunçuların partiyalarını izləmək və biliklərini daha da artırmaq imkanı qazanıb. Bu da şahmatın sərhəd tanımayan qlobal intellektual hərəkat olduğunu bir daha nümayiş etdirir.

**100 il öncə...**

İyulun 20-si dünyada Beynəlxalq Şahmat günü kimi qeyd olunur. Bayram 1966-cı ildən UNESCO-nun rəsmi bayram günləri təqviminə salınıb. Seçilən tarix heç də təsadüfi deyil. 1924-cü ilin məhz iyul ayının 20-də, Fransanın paytaxtı Paris şəhərində Ümumdünya Şahmat Federasiyası (FİDE) yardılıb. Artıq 100 ildir ənənəyə çevrilən bayram, Azərbaycan da daxil olmaqla dünyanın 178 ölkəsində qeyd olunur.

**Şahmat nə vaxt və necə yarandı?**

Şahmat 1500 il bundan əvvəl Hindistanda meydana gəlib və ilk vaxtlar “çaturanq” adlanırdı. Bu oyunun qaydaları vaxt ötdükcə dəyişərək indiki halını alıb. Rəvayətə görə, hind müdriklərindən biri çaturanq oyununu qanlı müharibələrin qarşısını almaq üçün icad edib: Döyüş əməliyyatlarını adi taxta üzərində aparmaq və qələbəni insanın ən güclü silahı - ağılla qazanmaq mümkündürsə, onda nəyə görə qan tökülsün? Bu oyun hind şahzadəsini valeh edir. Şahzadə bu oyunu icad edən şəxsi mükafatlandırmaq məqsədi ilə saraya çağıraraq deyir: “Nə arzun varsa, de, yerinə yetirim”. Həmin müdrik şəxs birinci xana üçün 1, ikinci xana üçün 2, üçüncü xana üçün 4, dördüncü xana üçün 256 və bu minvalla 64 xananın hər biri üçün həndəsi silsilə ilə artan qaydada buğda istəyir. İxtiraçının istəyinin bir kisə buğdadan çox olmayacağını düşünən şahzadə bu xırda ənamı verməkdən utanır və həmin şəxsə çoxlu qızıl-gümüş təklif edir. Müdrik şəxs bununla razılaşmır. Şahzadə xəzinədarı çağırır və xahişi yerinə yetirməyi əmr edir. Səhəri gün xəzinədar şahzadəyə ixtiraçının istədiyi buğdanın həddən çox olduğunu xəbər verir. Bunun 18 446 744 073 709 551 616, yəni 18 kvintilyon 446 kvadrilyon 744 trilyon 73 milyard 709 milyon 551 min 616 buğda dənəsi etdiyini deyir. Bu qədər buğdanı bir yerə yığmaq üçün hündürlüyü 4 metr, eni 10 metr, uzunluğu isə 30 milyon kilometr olan anbar gərəkdir. Şahzadə heyrətlənir və müdrik insanın ağlına bir daha heyran qalır.

**Azərbaycanda şahmatın inkişaf tarixi**

Azərbaycanda şahmatın intellektual idman növü kimi tarixi qədim zamanlara gedib çıxır. Ölkəmizdə şahmat oyunu özünü təsdiq edənə qədər böyük inkişaf yolu keçib. Tədqiqatçıların fikrincə, şahmatın ilk forması olan çətrəngin əsrlər boyu təkmilləşdirilib şətrənc (şahmatın ikinci inkişaf mərhələsi) halına salınmasında, həmçinin şətrəncin inkişaf etdirilib müasir şahmata çevrilməsində böyük əmək sərf etmiş xalqlardan biri də azərbaycanlılar olub. Azərbaycan xalqının görkəmli elm, sənət adamları hələ qədim zamanlarda uzaq Hindistanda şahmatın yaradılması ilə maraqlanmış, onun başqa ölkələrə yayılmasını daim izləmiş və özləri də VI əsrin axırlarında həmin oyunla yaxından məşğul olmuşlar. Lakin o dövrün şahmat oyunçularından heç kəsin adı bizə məlum deyil.

**İlk azərbaycanlı şahmatçı...**

Orta Asiya əlyazmasında adı çəkilən ilk Azərbaycan şahmatçısı Cəlaləddin Naxçıvanidir (IX əsr). Xaqani Şirvani (XII əsr), Nizami Gəncəvi (XII əsr), İmadəddin Nəsimi (XIV əsr), Məhəmməd Füzuli (XVI əsr) kimi dahi mütəfəkkirlərimiz öz əsərlərində şahmatı tərənnüm edib, onun haqqında mənalı, dərin fikirlər söyləyiblər. XI əsrdə yaşamış görkəmli mütəfəkkirimiz Qətran Təbrizinin əsərlərində o dövrün şahmatı haqqında maraqlı məlumatlar verilib.

*Yeganə BAYRAMOVA*

**İtmişdir**

Kərimov Sadiq Kərim oğluna Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən verilmiş (VAIS) elektron imza kartı itdiyi üçün etibarsız sayılır.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4479
Sifariş: 910
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova